QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 158 (5630) 22 **avqsut** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Aqrar sahədə perspektivli islahatlar davam edir

Səh 2



Prezident İlham Əliyevin kənd təsərrüfatının inkişafı ilə bağlı verdiyi sərəncamlar və görülən işlər əldə olunan nailiyyətləri sübut edir

4

**Mübariz Qurbanlı: "Məhərrəmlik ayında xurafat elementlərini təkrarlamaq istəyi yolverilməzdir"**



5

**Bu gün xalqımız əmin-amanlıq şəraitində Qurban bayramını qeyd edir**



16

**Azərbaycan iki Avropa çempionatına ev sahibliyi edəcək**



# Aqrar sahədə perspektivli islahatlar davam edir

## *Prezident İlham Əliyevin kənd təsərrüfatının inkişafı ilə bağlı verdiyi sərəncamlar və görülən işlər əldə olunan nailiyyətləri sübut edir*

***Son illər Azərbaycanda neft gəlirlərindən səmərəli istifadə edilməsi iqtisadiyyatın şaxələndirilməsinə və qeyri-neft sektorunun inkişafına səbəb olmuşdur. İqtisadiyyatın şaxələndirilməsi, bütün digər sahələr kimi, aqrar bölmənin də inkişaf etdirilməsi üçün əlverişli imkanlar yaratmışdır. Bu gün dünyanın qlobal ərzaq problemi ilə üz-üzə qaldığı vaxtda aqrar sektorun inkişaf etdirilməsi Azərbaycanın iqtisadi siyasətində strateji istiqamət elan olunub. Məhsul istehsalçılarının, demək olar, bütün vergilərdən azad edilməsi, onları yanacaq və motor yağlarına, eləcə də, əkin sahələrinə görə subsidiyaların verilməsi, fermerlərə texnika və cins mal-qaranın güzəştli qiymətlərlə satılması və bu kimi digər tədbirlər, son nəticədə istehsalın artmasına, nəticədə isə ölkəmizin ərzaq sarıdan idxaldan daha az asılılığına səbəb olub.***



Azərbaycan bununla kifayətlənmək fikrində deyil. Nazirlər Kabinetinin iclaslarından birində Prezident İlham Əliyev dövlətin bu sahədə növbəti məqsədini belə açıqlamışdı: "Ərzaq təhlükəsizliyi bu sahədə prioritet təşkil edir... İstehsalı mümkün olan bütün məhsullar Azərbaycanda istehsal edilməlidir





və biz idxaldan asılılığımızı azaltmalıyıq... Eyni zamanda, biz ixrac imkanlarımızı da artırmalıyıq. Mən əminəm ki, indi kənd təsərrüfatında aparılan islahatlar - məhsuldarlığın artırılması, subsidiyalarda şəffaflığın təmin edilməsi, kənd təsərrüfatı texnikasının daha da böyük həcmdə alınması və digər tədbirlər nəticəsində, bizdə daha da böyük ixrac potensialı yaranacaq və bizim artan daxili tələbat Azərbaycanda istehsal olunacaq kənd təsərrüfatı məhsullarını həzm edə bilməyəcəkdir. Ona görə ixrac imkanlarımızı artırmalıyıq. İxraca çıxarılan məhsullar ən yüksək dünya standartlarına cavab verməlidir. Biz yeni ixrac bazarları axtarmalıyıq və o bazarlara çıxmalıyıq. Belə olan halda, biz gələcəkdə sahibkarlığın və kənd təsərrüfatının yüksəlişi üzrə çox dinamik inkişaf yolu ilə gedəcəyik, bu inkişafı təmin edəcəyik".

### Aqrar sektorun inkişafının prioritet hədəfləri

Ümumiyyətlə, ölkəmizdə kənd təsərrüfatının inkişaf etdirilməsi və müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür. Aqrar sektora dövlət tərəfindən qoyulan investisiyalar ilbəil artır. Yeni texnikalar alınır, dövlət tərəfindən subsidiyalar ayrılır, aqroxidmət sahələri yaradılır, güzəştli şərtlərlə gübrə, yanacaq və lizinqlər verilir. Sahibkarlara güzəştli şərtlərlə verilən kreditlər hesabına yeni aqrar istehsal sahələri yaranır. Bunun nəticəsində, ölkəmizdə aqrar sektorda məhsul istehsalının artması yeni emal müəssisələrinin yaradılması tələbatını ortaya qoyur. Kənd təsərrüfatının inkişafının rəqəmlərlə ifadəsinə gəldikdə isə, aqrar sahəyə göstərilən qayğı və dəstəyin nəticəsində, ölkədə kənd təsərrüfatı məhsullarının istehsalında artım mövcuddur. Bu il iqlim şəraitinin yaxşı olmaması, quraqlıq olmasına baxmayaraq, müsbət nəticələr əldə edilib.

İyulun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı kənd təsərrüfatı ilə bağlı qarşıda duran əsas vəzifələrə toxunaraq, bildirib ki, bu sahədə ən müasir standartları tətbiq etməkdir: "Son illərdə kənd təsərrüfatının inkişafına böyük diqqət göstərilmişdir. Demək olar ki, biz texnika parkımızı tamamilə yeniləmişik. Kənd təsərrüfatı texnikasının alınması bundan sonra da davam etdiriləcək, ancaq onun əsas hissəsi həll olunub. Özü də qeyd etməliyəm ki, dünyanın aparıcı şirkətlərinin texnikası bu gün bizim tarlalarımızda fəaliyyət göstərir və fermerlər də bu texnikadan çox razıdırlar. Bu məqsədlə böyük vəsait nəzərdə tutulur. Burada qeyd olundu, təkcə bu il 160 milyon manat dəyərində 5 mindən çox texnika alınacaq. Keçən il 10 min texnika alınmışdır. Ancaq bu sahədə bundan sonra şəffaflıq tam təmin edilməlidir. Kənd Təsərrüfatı Nazirliyi qarşısında bu vəzifə qoyulub. Bizim texnika parkımız tam təftiş edilməlidir. Yeni alınacaq texnika ilə bağlı çox dəqiq təkliflər verilməlidir. O texnika bizim kənd təsərrüfatının ümumi inkişaf dinamikasına uyğun olmalıdır və prioritetləri də özündə əks etdirməlidir".



Prezident İlham Əliyev qida təhlükəsizliyinin çox önəmli sahə olduğunu deyərək, bilirib ki, bu baxımdan, bu yaxınlarda yaradılan Qida Təhlükəsizliyi Agentliyi qarşısında çox ciddi vəzifələr qoyuldu: "Həm Azərbaycana gətirilən ərzaq məhsulları standartlara tam uyğun olmalıdır, eyni zamanda, Azərbaycanda istehsal edilən məhsullar beynəlxalq standartlara uyğun olmalıdır. İxrac edəcəyimiz məhsullar da, elə səviyyədə olmalıdır ki, ixracla bağlı problem olmasın. Bunun üçün Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyəti çox yüksək səviyyədə təşkil edilməlidir. İndi bu işlər gedir. Laborator tədqiqatlar, torpaqların təhlili, münbitliyi - bu işlər çox böyük dəqiqliklə aparılmalıdır və fermerlərə tövsiyə verilməlidir ki, hansı torpaqda hansı məhsul əkilərsə, bunun daha çox səmərəsi olacaqdır".

Göründüyü kimi, bütün bunlar, deməyə əsas verir ki, Azərbaycan yaxın gələcəkdə, digər sahələrdə olduğu kimi, kənd təsərrüfatı sektorunda da regionun, eləcə də, Avropanın lider dövlətinə çevriləcək.

**RƏFİQƏ KAMALQIZI**

# Azərbaycanın regional liderliyi:
# geosiyasi, nəqliyyat və logistika aspektləri

***Dünya miqyasında geosiyasi dinamika o dərəcədə mürəkkəbləşib ki, gənc müstəqil dövlətlərin suverenliyi və inkişaf perspektivləri ciddi nəzəri-praktiki problemə çevrilib. Mütəxəssislər bütün bunları nəzərə alaraq bir sıra dövlətlərin, məsələn, Ermənistanın müstəqil dövlətçiliyinin baş tutmadığını yazırlar. Onlar hesab edirlər ki, müstəqil dövlət quruculuğu çoxlu sayda ciddi faktorun vəhdəti sayəsində baş tuta bilər. Həmin çərçivədə Azərbaycanın Cənubi Qafqazın lider dövləti olaraq qəbul edilməsi çox aktual nəzəri və praktiki faktor kimi diqqəti çəkir. Şübhəsiz, məsələnin bu aspekti geniş araşdırılmalıdır. Çünki Azərbaycan özü üçün çox çətin olan geosiyasi mənzərəni ardıcıl atdığı addımlarla tamamilə yeniləşdirə bildi. Bir zamanlar Azərbaycanı qəbul etmək istəməyən böyük dövlətlər indi onunla əməkdaşlığı genişləndirmək planları üzərində çalışırlar. Bu səviyyəyə asan gəlinməyib. Ölkə rəhbərliyinin həyata keçirdiyi müstəqil dövlət quruculuğu kursu əsas rol oynayıb. Müasir geosiyasi kontekstdə bu kimi məqamlar üzərində daha geniş dayanmağa ehtiyac görürük.***




## Dəqiq düşünülmüş kurs: Azərbaycanın müstəqillik yolunda inamlı addımları

İndiki tarixi mərhələdə müstəqil dövlətin gücü daxili potensialı ilə beynəlxalq aləmdəki mövqeyinin vəhdətində ifadə olunur. Bu iki aspekt bir-birini tamamladıqda, ölkə daha sabit inkişaf xəttinə çıxır. Ulu Öndər Heydər Əliyev milli dövlət quruculuğu kursunu işləyərkən, həmin məqamı çox ciddi surətdə nəzərə alıb. Azərbaycan daxili iqtisadi inkişafını təmin etməklə yanaşı, beynəlxalq aləmdə mövqeyini möhkəmləndirən, nüfuzunu artıran tədbirləri də davamlı surətdə həyata keçirib. Mütəxəssislər haqlı olaraq buna sübut kimi Bakı-Tbilisi-Ceyhan neft boru kəmərini, Bakı-Tbilisi-Qars dəmiryolu xəttini və başqa layihələri göstərirlər.

Prezident İlham Əliyev həmin istiqaməti çox böyük uğurla inkişaf etdirir. Son 15 ildə həyata keçirilən layihələr Azərbaycanı yeni bir təkamül xəttinə çıxarıb. Artıq ölkə Cənubi Qafqazın geosiyasi, geoiqtisadi, nəqliyyat və logistika mərkəzi kimi qəbul edilir. Bu, çox ciddi tarixi irəliləyiş, nailiyyətdir. Çünki hazırda dünya miqyasında və regionda geosiyasi vəziyyət son dərəcə mürəkkəbdir və hətta böyük dövlətlər mövcud mövqelərini saxlamaq üçün ciddi mübarizə aparırlar. Azərbaycan isə bütün istiqamətlərdə hər il yeni zirvələr fəth edir.

Digər tərəfdən, Azərbaycanın geosiyasi, geoiqtisadi, nəqliyyat-logistika uğurları bir-birini üzvi şəkildə tamamlayır. Bu, nəzəri baxımdan çox aktual məqamdır və həmişə dərin təhlilinə ehtiyac var. Başqa səbəblərlə yanaşı, həm də ona görə ki, Azərbaycan müstəqilliyinə nail olan ölkə kimi bir inkişaf modeli ortaya qoyur. Bu təcrübənin yalnız region dövlətləri üçün deyil, bütövlükdə dünya üçün əhəmiyyəti dərk edilməlidir.

Məsələnin geosiyasi aspekti çox maraqlıdır. Azərbaycan keçən əsrin 90-cı illərində özü üçün yaranmış mürəkkəb, ziddiyyətli və mənfi təsirli geosiyasi mənzərəni həyata keçirdiyi konkret proqramlar sayəsində tamamilə dəyişə bildi. Bunu, obrazlı desək, kimsənin himayəsinə sığınmadan, öz "biləyinin gücü ilə" etdi. İndi regionda geosiyasi mənzərə Azərbaycan üçün əlverişli istiqamətdə inkişaf etməkdədir. Və bu prosesdə Azərbaycanın regional geosiyasi mərkəz olması ciddi rol oynamaqdadır.

Bunu təsdiq edən faktlar sırasında dünyanın böyük dövlətlərinin regional təhlükəsizlikdə və əməkdaşlıqda Azərbaycanı əsas tərəfdaş kimi seçməsi möhkəm yer tutur. Rusiya rəhbərliyi dəfələrlə bu barədə bəyanatlar verib və konkret addımları ilə də onu təsdiq edirlər. Müxtəlif təsirlərə baxmayaraq, Moskva Bakı ilə əlaqələrə geosiyasi, iqtisadi, mədəni və təhlükəsizlik aspektlərində böyük önəm verilən məsələ olaraq yanaşdığını açıq bildirir. Bu prosesi analiz edən bir sıra ekspertlər hətta Azərbaycanın hərbi-müdafiə sahəsində Rusiyanın yaratdığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) daxil ola biləcəyi fikrini irəli sürürlər. Ancaq Azərbaycanın heç bir hərbi bloka qoşulmayacağı haqqında yüksək səviyyədə fikirlər dəfələrlə ifadə edilib. Hər bir halda, burada Azərbaycan-Rusiya münasibətlərinin yüksək səviyyədə olması məqamı daha önəmlidir.

Azərbaycanın İranla təhlükəsizlik sahəsində qarşılıqlı anlaşma içərisində olduğu məlumdur. Tehran Azərbaycanın geosiyasi maraqlarını nəzərə alır və təhlükəsizliyin təminində ortaq hərəkət etməkdədir. Türkiyə qardaş dövlət kimi zatən Azərbaycanın təhlükəsizliyi üçün əlindən gələni edir. ABŞ rəhbərliyinin bəyanatları onu göstərir ki, Vaşinqton Azərbaycanda sabitlik və inkişafın olmasında maraqlıdır. Eyni qayda ilə Avropa İttifaqının böyük dövlətlərinin hamısı Azərbaycanın geosiyasi təhlükəsizliyinin təmin edilməsində maraqlı olduqlarını bildiriblər. Deməli, bütün böyük güclər faktiki olaraq Azərbaycanın Cənubi Qafqazın geosiyasi mərkəzi olduğunu qəbul edirlər.

## Çevik siyasət: bütün yollar Bakıdan keçir

Geoiqtisadi və nəqliyyat-logistika aspektlərində də Azərbaycan regionun mərkəzi qovşağı halına gəlib. Bu sırada öncə "Yeni İpək Yolu" layihəsi ilə Azərbaycanın coğrafi, iqtisadi, energetik və nəqliyyat-logistika özəlliklərinin tam uyğunlaşdırılması vurğulanmalıdır. Sadalanan istiqamətlərdə sistemli fəaliyyət göstərmək üçün Azərbaycanın strateji yol xəritələri hazırdır. Məsələn, "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" 2020-2025-ci illər və 2025-ci ildən sonrakı dövr üçün qısa, orta və uzunmüddətli perspektiv istiqamətləri müəyyən edir. Sənəddə logistika üzrə inkişaf perspektivini özündə əks etdirən strateji məqsəd və hədəflər konkret ifadəsini tapıb. Eyni zamanda, həmin məqsəd və hədəflərə çatmaq üçün prioritetlər də müəyyənləşdirilib. Daha konkret səviyyədə əsas və digər icraçıların, icra müddətlərinin, nəticə indikatorlarının əks olunduğu təfsilatlı tədbirlər planı hazırlanıb.

Strateji yol xəritəsində mühüm faktorlardan biri kimi Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində Azərbaycanın rəqabətqabiliyyətliliyini təmin etmək məsələsi göstərilib. Bu iki istiqamətin işləməsinin nəqliyyat və iqtisadi əhəmiyyətindən başqa, geosiyasi rolu da şübhəsizdir. Onlar faktiki olaraq Qərb, Rusiya, İran və Çinin maraqlarının kəsişdiyi sahəyə aiddir. Bu səbəbdən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində Azərbaycanın rəqabətqabiliyyətliliyinin təmin edilməsi mühüm məsələdir. Bununla Azərbaycan özünün geosiyasi dəyərini təsdiqləmiş olur. Çünki indi elə qüvvələr var ki, Azərbaycan miqyasında olan ölkələri yalnız tranzit punktu statusunda görmək istəyirlər.

Geosiyasi və geoiqtisadi aspektlərin vəhdəti çərçivəsində məsələnin mahiyyəti də bundan ibarətdir. Azərbaycan həm nəqliyyat dəhlizlərinin kəsişdiyi coğrafi məkan, həm də ciddi rəqabət qabiliyyətinə malik dövlət olaraq bu prosesdə iştirak edirsə, onu hər kəs regionun geosiyasi, iqtisadi, kommunikasiya və logistika mərkəzi kimi qəbul etməyə məcburdur. Bu aspektdə Prezident İlham Əliyevin 2016-cı il mart ayının 17-də Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla, Azad Ticarət Zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalaması xüsusi əhəmiyyəti olan hadisədir.

Sərəncamın əsas məqsədlərindən biri Azərbaycanın logistika və nəqliyyat mərkəzi kimi mövqeyinin gücləndirilməsindən ibarətdir. Azad İqtisadi Zonanın yaradılması isə Bakının beynəlxalq qovşağa çevrilməsinə böyük təkan verəcək. Bu bağlılıqda Prezident İlham Əliyevin aşağıdakı fikirləri çox maraqlıdır: "Bu layihələr Azərbaycanın geosiyasi önəmini böyük dərəcədə artırır. Azərbaycan Avrasiya məkanında regional əməkdaşlıq üçün əvəzolunmaz ölkə kimi öz fəaliyyətini davam etdirəcək" (bax: Prezident İlham Əliyev Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışında iştirak edib / AZƏRTAC, 14 may 2018).

Bütün məsələlərin mahiyyəti ölkə başçısının ifadə etdiyi bu fikirlərlə sıx bağlıdır. Azərbaycan müstəqil dövlət olaraq regionda geosiyasi statusunu daim yüksəltməlidir və bu bağlılıqda lider kimi rolunu tam yerinə yetirməlidir. Azərbaycan öz geosiyasi, iqtisadi, energetik və logistika dəyərlərini yaratmaqla, əməkdaşlıq və təhlükəsizliyə öz töhfəsini verməlidir. Bunlara görədir ki, Azərbaycan fəaliyyətində hər bir məqam incəliyinə qədər işlənir, reallığa uyğun məzmun və formaya salınır.

Onu da qeyd edək ki, həmin məqam xarici ekspertlərin fikirlərində də geniş yer tutur. Onlar Azərbaycanın əsaslı və ardıcıl olaraq inkişaf kursunu həyata keçirdiyini açıq etiraf edirlər. Cənubi Qafqazda beynəlxalq əhəmiyyətli layihələrin hamısında Bakının imzası var. Bunun region üçün çox gözəl nəticələrinin olacağına şübhə yoxdur. Çünki Cənubi Qafqazda lider funksiyasını Azərbaycandan başqa ölkənin yerinə yetirməyəcəyi artıq məlumdur. Digər dövlətlərin liderlik səviyyəsinə uyğun imkanları yox dərəcəsindədir. Bunu təcrübə sübut edir. Azərbaycan isə dövlətçilik xəttinə, inkişaf kursuna və əməkdaşlıq formatlarının rəngarəngliyinə görə çox fərqlənir. O, sülhsevər, sivil, dinc yanaşı yaşama fəlsəfəsini dövlətçiliyində böyük ölçüdə nəzərə alan və davamlı inkişaf edən ölkədir. Liderlik xüsusiyyəti Azərbaycan dövlətçiliyinin mahiyyətindədir!

**Newtimes.az**

# Bakıda "Mənəvi dəyərlərin təbliği və dini icmalar" mövzusunda konfrans keçirilib

*Avqustun 21-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Bakıda "Mənəvi dəyərlərin təbliği və dini icmalar" mövzusunda konfrans keçirilib.*



AZƏRTAC xəbər verir ki, konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi, Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu, Qafqaz Müsəlmanları İdarəsi və Azərbaycan Milli Elmlər Akademiyasının rəsmi şəxsləri, ölkəmizdə fəaliyyət göstərən dini konfessiya rəhbərləri, media təmsilçiləri, eləcə də din icma sədrləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçılarını Qurban bayramı münasibətilə təbrik edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı xalqımızın özünün milli-mənəvi irsinə, onu bütövləşdirən və zənginləşdirən komponentlərə, eyni zamanda, birgəyaşayış mühiti və tolerantlıq kimi xüsusiyyətlərə söykənərək ziddiyyətli ictimai-siyasi sınaqlarından məharətlə çıxa bildiyini, dünya xalqları arasında öz varlığını, dövlətçilik ənənələrini qoruyub saxlamağı bacardığını bildirib. Milli-mənəvi irsimizin qorunması, təbliği, tədqiqi və onun gələcək nəsillərə ötürülməsi istiqamətində görülən ardıcıl tədbirlərdən bəhs edən Mübariz Qurbanlı Azərbaycanda milli ruhun yüksəlməsində ulu öndər Heydər Əliyevin böyük xidmətlərinin olduğunu diqqətə çatdırıb. Komitə sədri dövlət müstəqilliyimizin bərpasından sonra Ümummilli Liderin ortaya qoyduğu azərbaycançılıq ideologiyasının adət-ənənələrimizin qorunması baxımından çox əhəmiyyətli olduğunu deyib. Qeyd edilib ki, əsası Ulu Öndər tərəfindən qoyulan dövlət-din siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla aparılır, Azərbaycanda milli-mənəvi dəyərlərin qorunub-saxlanılmasına dövlət səviyyəsində qayğı göstərilir.

Komitə sədri mənəvi dəyərlərin qorunaraq sonrakı nəsillərə çatdırılmasında Mənəvi Dəyərlərin Təbliği Fondu və Qafqaz Müsəlmanları İdarəsinin fəaliyyətinə diqqət çəkib. Bu dəyərlərin cəmiyyətdə milli həmrəylik, birlik ruhunu oyatdığını və toplumu üzləşdiyi yad təsirlərdən, təhlükələrdən qoruduğu üçün onu mühafizə və təbliğ etməyin labüd olduğunu deyən Komitə sədri burada dini icmaların da əhəmiyyətli rol oynadığını qeyd edib.

Daha sonra Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmər xanım Cavadlı milli-mənəvi dəyərlərimizin bir hissəsi olan dinimizin, dilimizin qorunmasında icmaların rolunu xüsusi qeyd edib. Müstəqillik illərində dini mühitin zənginləşdirilməsi istiqamətində mühüm işlərin görüldüyünü bildirən Q.Cavadlı bu sahəyə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan bəhs edib. Sədr müavini milli-mənəvi dəyərlərin təbliği istiqamətində dini maarifləndirmə işində qeyri-müsəlman dini konfessiyaların da cəlb edilməsinin önəminə toxunub.

Mənəvi Dəyərlərin Təbliği Fondunun himayəçilər şurasının üzvü, "Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev Azərbaycanın dünyada tolerantlığa nümunə olduğunu, bununla yanaşı, milli-mənəvi dəyərlərimizin layiqincə qoruyub saxlanıldığını bildirib.

Bu gün milli-mənəvi dəyərlərin təbliği istiqamətində mühüm işlərin görüldüyünü qeyd edən B.Quliyev Azərbaycan xalqının söykəndiyi bu dəyərlərin ulu öndər Heydər Əliyevin yaratdığı dövlətçilik prinsiplərinin əsasında durduğunu vurğulayıb. O bildirib ki, müxtəlif dövrlərdə milli-mənəvi dəyərlərimiz basqılara məruz qalsa da, Azərbaycan müstəqil olandan sonra mənəvi dəyərlərimiz dövlətin əsas strategiyasına çevrilib. Mətbuatın da bu sahədə fəaliyyətinin əsas olduğunu deyən Bəhruz Quliyev əlavə edib ki, sosial şəbəkələrdə dəyərlərimizin təbliği üçün vətəndaş jurnalistikasına ehtiyac var.

Bilik Fondunun Aparat rəhbəri İsaxan Vəliyev milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsinin təşviqi istiqamətində Fondun həyata keçirdiyi layihələrdən söz açıb. Layihələrə dini qurumların rəhbərlərinin cəlb edildiyini deyən İ.Vəliyev milli-mənəvi dəyərlərin tərkib hissəsi olan dilimizin tədrisi məqsədilə yaradılan dil kurslarının əhəmiyyətindən danışıb.

Bakı şəhəri Dağ yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev, AMEA-nın Fəlsəfə İnstitutunun şöbə müdiri, fəlsəfə elmləri doktoru, professor Sakit Hüseynov və Rus-Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Konstantin Pominov çıxışlarında milli-mənəvi dəyərlərin ictimai şüurda möhkəmlənməsində, təbliği və təşviqində dini icmaların rolu və öhdəlikləri, bu istiqamətdə onların potensialından istifadənin üstünlükləri barədə danışıb. Konfrans müzakirələrlə davam edib.

## Azərbaycan Silahlı Qüvvələri Baş Qərargah rəisinin Belarusa səfəri başlayıb



Avqustun 21-də Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkovun Belarus Respublikası müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-mayor Oleq Belokonevin dəvəti ilə Minskə səfəri başlayıb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, avqustun 24-dək davam edəcək səfər çərçivəsində Azərbaycan ilə Belarus arasında hərbi əməkdaşlığın vəziyyəti müzakirə olunacaq, işbirliyinin inkişafı üçün perspektivli sahələr müəyyənləşdiriləcək.

## Daxili işlər naziri Şəkidə vətəndaşları qəbul edəcək



Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov avqustun 25-də saat 10:00-da Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ şəhər və rayonlarının sakinlərini Şəki Şəhər Rayon Polis Şöbəsində qəbul edəcək. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və nazirliyin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər. Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

## Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsi bayram günlərində də işləyəcək



Qurban bayramı ilə əlaqədar avqustun 22-dən 24-dək qeyri-iş günləri olmasına baxmayaraq, Daxili İşlər Nazirliyinin (DİN) Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsi və onun regional şöbələri adi rejimdə işləyəcək. DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, vətəndaşların qəbulu adi iş günlərində olduğu kimi, səhər saat 9.00-dan axşam saat 19.00-dək davam edəcək.

## Mübariz Qurbanlı: "Məhərrəmlik ayında xurafat elementlərini təkrarlamaq istəyi yolverilməzdir"



"Məhərrəmlik ayı ilə əlaqədar komitənin tədbirlər planı icra olunacaq. Plana uyğun olaraq görüşlər keçiriləcək, müzakirələr aparılacaq". SİA-nın xəbərinə görə, bunu jurnalistlərə açıqlamasında Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. O, bildirib ki, məhərrəmlik ayında insanlar məscidlərdə dini ayinləri müasir dövrün tələblərinə uyğun icra edirlər: "Məncə, bu il də bununla əlaqədar heç bir problem olmayacaq. Dini ayinlər məscidlərin imamları tərəfindən icra edilir. Həmin imamların həm namazı idarə etməsi, həm də xütbələr zamanı söylədiyi fikirlər islami dəyərlərə söykənir. Məhərrəmlik ayındakı mərasimlərdə bəziləri xurafat elementlərini təkrarlamaq istəyir, bunlar isə yolverilməzdir".

M.Qurbanlı qeyd edib ki, Qafqaz Müsəlmanları İdarəsinin çağırışı ilə hər il qanvermə aksiyası keçirilir. Bu çağırışlar son illərdə Türkiyə və İranda da tətbiq olunur: "Yəni zəncir vurmaq, qan çıxarmaq, özünə xətər yetirmək kimi əməllər qəbul edilən deyil və bunlar sonradan meydana çıxan, uydurulmuş hərəkətlərdir. Biz də bu əməllərin əleyhinəyik. Qafqaz Müsəlmanları İdarəsi də bu cür çağırışlar edir. Bunlar olacaqsa, onlar dini ayinlərin icrasında yol verilən nöqsan olacaq". Komitə sədri vurğulayıb ki, bu il məhərrəmlik ayı sentyabrın 11-dən başlayacaq, 10 gündən sonra Aşura olacaq.

M.Qurbanlı daha sonra bildirib ki, Azərbaycanda Qurban bayramı tarixən qeyd olunub və bu bayramda heyvanların kəsilməsi nəsildən-nəslə ötürülən ənənələr əsasında olub. Hesab edirəm ki, bu qaydaları bilməyən kimsə yoxdur. Ancaq kimsə qurbanlıq heyvanların kəsim qaydalarını bilmirsə qurban ətinin kəsiminin qaydalarını bilənin kəsməsini həyata keçirsin. Onun sözlərinə görə, Qurban kəsimi qaydalarını hər kəs internetdən də istifadə edərək öyrənə bilər: "Əgər qurbanlıq heyvanların ənənələrə uyğun olmayan formada kəsilməsi halları varsa, bu yolverilməzdir".

## Albert Vaylerin adı "arzuolunmaz şəxslər" siyahısına salınıb



"Almaniya Bundestaqının deputatı Albert Vaylerin adı Azərbaycanın işğal olunmuş ərazilərinə səfər etdiyindən bir müddət əvvəl "arzuolunmaz şəxslər" siyahısına salınıb". SİA-nın məlumatına görə, bunu açıqlamasında Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Almaniyanın "Bild" qəzetində almaniyalı parlamentariyə Azərbaycan ərazisinə girişin qadağan edilməsi barədə yazılan məlumatlara münasibət bildirərkən deyib. "Azərbaycan qanunlarına, onun suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsi mütləqdir. Azərbaycanın mövqeyi konstruktiv xarakter daşıyır. Amma təcrübə göstərir ki, həmin şəxslər Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət və üzrxahlıq məqsədilə müraciət etdikləri təqdirdə onların adlarının "arzuolunmaz şəxslər" siyahısından çıxarılması məsələsinə baxıla bilər", - o qeyd edib.

Qeyd edək ki, avqustun 20-də "Bild" qəzeti Almaniya XİN-in Azərbaycan səfirliyi ilə əlaqə qurduğunu və deputat Albert Vayler üçün viza alınması ilə bağlı məsələnin həllinə uğursuz cəhd göstərdiyini yazıb. O, Cənubi Qafqaz ölkələri ilə əməkdaşlıq üzrə parlament qrupunun üzvüdür, Almaniya hökumətinin nümayəndə heyətinin üzvlərinin siyahısında yer alıb. A.Vayler 2014 və 2016-cı illərdə işğal olunmuş Dağlıq Qarabağa qanunsuz səfərlər edib.

Xatırladaq ki, bu həftə Almaniya kansleri Angela Merkel Gürcüstan, Ermənistan və Azərbaycana səfər edəcək.

# Bu gün xalqımız əmin-amanlıq şəraitində Qurban bayramını qeyd edir



***Xeyirxahlığın, bərabərliyin və fədakarlığın simvoluna çevrilən Qurban bayramını xalqımız tolerant mühitdə, multikultural dəyərlərə önəm verildiyi bir dövlətdə qeyd edir. Mənsubiyyətindən, irqindən asılı olmayaraq, bütün insanların sərbət fəaliyyət göstərdiyi Azərbaycanda xalqımız islam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramını təmtəraqla keçirir.***

Bu gün ölkəmizdə 2000-dən artıq məscid, 13 kilsə, 7 sinaqoq və digər ibadət yerləri fəaliyyətdədirsə, deməli, bu, artıq Azərbaycanda tolerant mühitin mövcudluğunu tam əsaslandırır. Ölkədə olan müxtəlif qurumlar hər bir millətə - ruslara, molokanlara, yəhudilərə, tatlara, saxurlara, udilərə sərbəst yaşama və dinc həyat tərzi sürməsi üçün geniş imkanların yaradıldığından xəbər vermiş olur. Əbəs deyil ki, dünyanın ən qədim məscidlərindən olan Şamaxı məscidi bizim məkanada hələ 743-cü ildə tikilib. Şəkidə olan Qafqaz Albaniyası kilsəsi tarixin daş abidəsinə çevrilib. Əgər dünyaya sülh mesajı ilə özünü təqdim edən Azərbaycanda qeyd etdiyimiz mühit olmasaydı, yəqin ki, Azərbaycan imici dünyada özünü doğrultmazdı. Bu, bizim ölkəmizdə mövcud olan ənənələrin, müsbət proseslərin nəticəsidir və onların yeni bir mərhələyə qalxmasına təkan verir. Bəli, Azərbaycan xalqı belə bir mühitlə ən əziz bayramlarından birini - qurban bayramını qeyd edir. Bu bayram münasibətilə, hər il olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan xalqına təbrik məktubu ünvanlayıb. Təbrik məktubunda Cənab Prezident Qurban bayramı münasibətilə xalqımızı və Azərbaycanın hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı təbrik edib. Təbrik məktubunda qeyd olunur ki, Qurban mərasimi Uca Yaradana məhəbbət və itaət, yüksək mənəvi-əxlaqi dəyərlərə hörmət, hər bir bəşər övladına mərhəmət və dözümlülük təlqin edən islam dininin insanlar üçün hidayət yolu seçilməsi ilə əlamətdardır: "Bu mübarək bayram bütün dünya müsəlmanlarının mənəvi-ruhi birliyini, əməli-saleh insanların Tanrı sevgisini və haqq-ədalət naminə hər cür fədakarlığa hazır olmalarını təcəssüm etdirir".

Mütərəqqi islami dəyərlərə bağlılığı ilə seçilən Azərbaycan xalqının əsrlər boyu, hətta ən mürəkkəb dövrlərdə Qurban bayramını özünün əziz günlərindən biri kimi qoruyub-saxladığını məktubda qeyd edən Cənab Prezident hazırda minlərlə həmvətənimizin də aralarında olduğu milyonlarla müsəlman müqəddəs Həcc ziyarətində möhtəşəm həmrəylik nümayiş etdirərək, Uca Yaradana şükranlarını bildirdiyini vurğulayır: "Bayram günləri müsəlmanlarımız Allah və din yolunda öz müqəddəs borcunu yerinə yetirir, qurbanlar kəsilir, imkansızlara və ehtiyacı olanlara yardımlar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, hər belə bayram cəmiyyətimizdə xeyirxahlığın, birlik və bərabərliyin, Vətənə və milli dövlətçiliyə sədaqətin təntənəsinə çevrilir".

Məlumdur ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən, Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində bayram edilir. Hər il ölkəmizdə dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunan Qurban bayramı xeyirxahlıq və mərhəmət duyğularının təcəssümü olmaqla yanaşı, bərabərlik və dözümlülük ovqatını da insanlarda gücləndirir.

Üç səmavi dinin- yəhudilik, xristianlıq və islamın hər üçündə müxtəlif formada qurbanlıq mövcuddur. Lakin islamda bu ayin xüsusi mahiyyət və əhəmiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, Onun qüdrətinə dərin inam və iman işığı durur. İslam dinində Qurban bayramı böyük bayram adlanır. Bayram günü məscidlərdə xüsusi bayram namazı qılınır, dəvə, mal-qara, davar qurban kəsilir, vəfat etmiş əziz adamların xatirəsini yad etmək əlaməti olaraq, evlərdə və qəbiristanlıqlarda dua oxunur və ehsan verilir.

Mənbələrdə göstərilir ki, insanları halallığa, paklığa səsləyən Qurban bayramının çox maraqlı tarixi və şərtləri var. Qurban bayramı müsəlman ruhaniləri tərəfindən İbrahim peyğəmbərin (Ə) öz oğlu İsmayılı Allahın şərəfinə qurban kəsmək niyyətini bildirən hadisə ilə əlaqələndirilir. Odur ki, din tarixində dərin iz salmış bu hadisə Allaha inamın, dərin etiqadın nümunəsidir. Bu hadisənin başqa bir fəlsəfi-əxlaqi mənası da ondan ibarətdir ki, islam dinində insanın Allah yolunda qurban kəsilməsi qəbul olunmur. Çünki insan Allahın yaratdığı ən şərəfli və ən üstün məxluqudur. Allah özünün yaratdığını öz yolunda qurban kəsilməsini qəbul etmir. Bu bayramın əsas mahiyyəti Allah yolunda kəsilmiş heyvanın ətini Allahın imkansız bəndələri ilə bölüşmək, onları sevindirmək və sevincinə şərik olmaqdır. Beləliklə, bu bayramın və ayinin də əsasında, xeyirxahlıq, paklıq və Allaha inam və sevgi durur.

İsmayıl Qurbanında kəsilən heyvanlarda bir sıra şərtlər vacib sayılır. Qurbanlıq kimi seçilən heyvan qoç, iribuynuzlu dana, yaxud da dəvə olmalıdır. Nəsil artımında, dişi heyvanların müstəsna rolu olduğuna görə, qurbanlıq heyvanın erkək olması daha üstün tutulur. Qurbanlıq qoçun yaşına gəlincə, bu, ən azı, altı aylıq heyvan olmalıdır. Lakin dana, yaxud dəvənin bir yaşı tamam olsa, daha yaxşıdır. İsmayıl Qurbanında kəsilən heyvanın sağlam olması da vacib şərtdir. Əzalarında hər hansı nöqsanı olan, buynuzunun, yaxud qulağının biri olmayan, axtalanmış heyvanın qurban kəsilməsi islamda məsləhət görülmür.

Qurban kəsiləndə belə deyilməlidir: "Rəbbin üçün namaz qıl və qurban kəs!", "De ki: "Mənim namazım da, kəsdiyim qurban da, həyatım və ölümüm də aləmlərin Rəbbi - Allah üçündür".

Qurban bayramında hər bir imkanlı müsəlman qurban kəsib, onun ətini imkansızlara və kasıblara paylamalıdır. Quranda yazılıb: "Allaha nə ət, nə onun qanı çatmır, ancaq sizin dindarlığınız çatır". Qurban bayramı mənəvi-əxlaqi dəyərlərimizi özündə təcəssüm etdirərək, insanları hallalığa, paklığa və birliyə səsləyir. Bu günlər ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, dövlətimizin firavanlığı və tərəqqisi üçün dualar edilir və şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Humanizm, xeyirxahlıq və bərabərlik rəmzi olan Qurban bayramı cəmiyyətimizdə milli-mənəvi həmrəyliyi və dözümlülüyü daha da gücləndirir, insanlar arasında şəfqət və mərhəmət duyğularının təntənəsini nümayiş etdirir.

Kəsdiyiniz qurbanlar qəbul olsun! Qurban Bayramınız mübarək.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Xəzərin statusu ilə bağlı Konvensiyaya iqtisadi nəzər

***Xəbər verdiyimiz kimi avqustun 12-də Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçıları Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanı imzaladılar. Tarixi sənədi Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Rusiya Prezidenti Vladimir Putin, İran Prezidenti Həsən Ruhani və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov imzalayıblar. Bundan əlavə, Xəzəryanı dövlətlərin müvafiq qurumlarının rəhbərləri tərəfindən bir sıra sənədlərlə yanaşı Xəzəryanı dövlətlərin hökumətləri arasında ticari-iqtisadi əməkdaşlıq haqqında Saziş, Xəzəryanı dövlətlərin hökumətləri arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Saziş də imzalanıb. SİA Konvensiyanın sənədi imzalayan 5 ölkəyə gətirəcək iqtisadi dividentləri təqdim edir.***

## "Beynəlxalq yükdaşımalardan əldə olunan gəlirin həcmi artacaq"



İqtisadçı ekspert Vüqar Bayramov bildirib ki, Xəzərin statusunun müəyyənləşdirilməsinin təkcə siyasi deyil, həm də iqtisadi tərəfləri var: "Qazaxıstanda imzalanan Konvensiya beynəlxalq yük daşımalarının həcminin artmasına, yüklərin daha çox Xəzəryanı ölkələr və Xəzər vasitəsilə daşınmasına imkan verəcək. Belə olan halda, Azərbaycan da Xəzəryanı ölkə olduğu üçün beynəlxalq yükdaşımalardan əldə olunan gəlirin həcminin müəyyənləşdirilməsi baxımından faydalanan ölkələrdən olacaq. Çünki, Azərbaycanda Ələt Beynəlxalq Dəniz Ticarət Limanının qurulması məhz elə ölkəmiz üzərindən daşınan yüklərin həcminə təsir göstərəcək ki, bu da ölkəmizin beynəlxalq yük daşımalarından əldə etdiyi gəlirin həcminə müsbət təsir göstərəcək. Beləliklə, Xəzəryanı ölkələr daxil olmaqla Xəzər üzərindən daşınan yüklərin həcmində artımlar müşahidə olunacaq və bu da sözügedən ölkələrin gəlirlərinin artması baxımından vacibdir. Xəzərin statusunun müəyyənləşdirilməsi həm də kəmərlərin inşası baxımında çox vacibdir. Xəzəryanı ölkələr enerji resurslarına malik ölkələrdir və status müəyyənləşdikdən sonra onların fərqli bazarlara çıxış əldə etmək imkanı açılır. Bu da təbii ki, Xəzəryanı ölkələrin öz enerji resurslarından daha çox gəlir əldə etmək şansı yaradır. Xəzərin statusunun müəyyənləşdirilməsinin ən böyük iqtisadi xeyirlərindən biri mübadilə yataqlarının istifadəsi imkanlarının yaranmasıdır. Anlaşmaya əsasən, ölkələr ikitərəfli razılıq əsasında yataqlardan istifadə edəcəklər. Azərbaycan artıq Rusiya və Qazaxıstanla belə bir anlaşma da imzalayıb. Oxşar anlaşma İran prezidentinin Azərbaycana səfəri zamanı imzalanmışdı. Mübadilə yataqlarından birgə istifadə edilməsi Məhz Xəzəryanı ölkələrin daha çox gəlir əldə etməsinə imkan verəcək".

## "Sənədin imzalanması ilə problemlər aradan qaldırılmış oldu"



"Caspian Barrel" Neft Araşdırmaları Mərkəzinin rəhbəri, iqtisadçı İlham Şaban isə söyləyib ki, Xəzərin hüquqi statusu ilə bağlı imzalanan Konvensiya bütün Xəzəryanı ölkələrin bundan sonra özlərini hüquqi müstəvidə necə aparmasını qanuniləşdirir: "Əgər bundan əvvəl ölkələr öz araların dil tapmağa çalışırdılarsa, artıq bu hüquqi müstəvidə həllini tapmış oldu. Bundan sonra ölkələr sənəd əsasında nəyi edib-etməyəcəklərini müəyyənləşdirmiş oldular. Bu da region üçün bir stabillik şəraiti yaradır. Azərbaycan indiyədək öz mineral, karbohidrogen ehtiyatlarından necə hasil edirsə, bu işlər bundan sonra da davam etdiriləcək. Çünki Xəzərin dibi sektoral bölgü ilə öz əksini tapıb. Şimal hissə qeyd olunduğu kimi Rusiya, Azərbaycan, Qazaxıstan arasında orta xətt prinsipi ilə necə bölünübsə, tövsiyə olunub ki, Xəzərin cənub hissəsi də bu prinsip əsasında bölünsün. Burada məcburiyyət yoxdur sadəcə tövsiyə var ki, bu da məsələlərin ölkələrin qarşılıqlı konsersium əsasında həllinə imkan yaradır. Hər kəsə məlumdur ki, Xəzərin hüquqi statusu ilə bağlı aparılan uzun müddətli danışıqlar zamanı Azərbaycanın İran və Türkmənistan arasında müəyyən narazılıqlar var idi. Artıq sənədin imzalanması ilə problemlər aradan qaldırılmış oldu".

## "Azərbaycanın sazişdən əldə edəcəyi dividentləri daha çoxdur"



İqtisadçı-ekspert Rəşad Həsənovqeyd edib ki, bu günə qədər Xəzərdə statusun müəyyənləşdirilməməsi ilə bağlı dəfələrlə ciddi problemlər yaranırdı: "Xüsusilə də Xəzərdə resursların işlənməsi ilə əlaqədar daha geniş fəaliyyət həyata keçirən ölkələrdən birinin Azərbaycan olduğunu nəzərə alsaq, bu məsələnin həllini tapmaması müəyyən çətinliklərə səbəb olurdu. Hətta bu məsələlər Azərbaycanınla xarici neft şirkətləri arasında razılaşmalara da təsir göstərə bilirdi. Bu baxımdan düşünürəm ki, Xəzərin statusu ilə əlaqədar Konvensiyanın imzalanması artıq Xəzərin Azərbaycan hissəsində ölkəmiz tərəfindən həyata keçirilən iqtisadi fəaliyyətlərin birbaşa olaraq hüquqi çərçivəyə salınması və bunun beynəlxalq tərəfdaşlar tərəfindən birmənalı tanınmasını şərtləndirəcək. Konvensiyanın imzalanması ilə artıq hər ölkə öz sərhədlərini müəyyənləşdirdi. Bunun nəticəsində 5 ölkə Xəzərdə öz fəaliyyətini daha da aktivləşdirəcək. Rusiya, Qazaxıstan, Türkmənistan və İranın bu hissədə fəaliyyətini aktivləşdirməsi Azərbaycan üzərindən yüklərin daşınması, tranzit imkanlarımızdan istifadə olunması, bu günə qədər bu istiqamətə yönəldilən yatırımlardan daha çox gəlir əldə edilməsi üçün şanslar yaradır. Azərbaycanın Xəzəryanı ölkələrlə siyasi iqtisadi münasibətlərinin orta olduğunu nəzərə alsaq, hazırda ölkəmizin bu sazişdən əldə edəcəyi dividentləri daha çoxdur. Azərbaycan Konvensiyadan öz iqtisadi maraqlarını təmin etməklə bölgənin tranzit mərkəzinə çevrilə bilər. Xəzər Hövzəsində Azərbaycanın payına düşən hissədə ölkəmizin maraqlarını qorumaq və bu hissələrin resurs ehtiyatlarının işlənməsi üçün xarici şirkətlərlə daha rahat şəkildə, heç bir müdaxilə olmadan razılaşmalar əldə etmək imkanların yaranması ölkəmizin iqtisadiyyatına və gələcək inkişafına pozitiv təsir göstərəcək".

***Nailə Məhərrəmova***

# Ermənistan parlamentinin sədri də Paşinyanı "yıxıb-sürüdü"

## Ara Babloyan: "Cəmiyyətin inqilabçılara və əks-inqilabçılara parçalanması və dözümsüzlük tendensiyası açıq-aşkar görünməkdədir"

***"İnanıram ki, xalqın səsi eşidilməlidir, lakin bununla yanaşı, biz qəti şəkildə konstitusiya və qanunlarla hərəkət etməliyik, eyni zamanda, Ermənistan Respublikası üzərində öhdəmizə götürdüklərimizə əməl etməliyik". "Aysor.am" saytı Ermənistan parlamentinin sədri Ara Babloyanın fikirlərinə yer verib.***

Belə ki, parlament sədri baş nazir Nikol Paşinyanın avqustun 17-də keçirdiyi mitinqdəki çıxışını kəskin tənqid atəşinə tutub və bildirib ki, mövcud vəziyyətdən ciddi narahatlıq keçirir: "Təəssüflə bildirirəm ki, ölkədəki vəziyyətdən ciddi narahatam. Ölkənin normal ictimai-siyasi həyatı, konstitusion hüquqlar, dövlət orqanları və vətəndaş həmrəyliyi təhlükə altındadır, cəmiyyətin inqilabçılara və əks-inqilabçılara parçalanması, dözümsüzlük tendensiyası açıq-aşkar görünməkdədir".

### "Siz, əslində, danışmamışdan öncə, düşünməyi öyrənməlisiniz"

"Bu narahatlıq, xüsusilə, baş nazir Paşinyanın çıxışından sonra daha da artıb", deyə qeyd edən Ermənistan



parlamentinin sədri qarşı tərəfin fikirlərini sitat gətirib və həmin fikirlərin doğru olmadığını deyib: "Paşinyan deyir ki, "mən hər kəsə söz deməmişdən öncə, fikirləşməyi məsləhət görürəm". Bu, azad sözə məhdudiyyət qoymaqdır. Siz, əslində, danışmamışdan öncə, düşünməyi öyrənməlisiniz. Məhz bundan sonra azad ifadə etmək hüququnuz üzərində fikirləşməlisiniz. Etiraf edib ki, baş nazir Paşinyandan təhdid xarakterli bu cür ifadələri eşitmək mənim üçün gözlənilməz oldu".

### "Parlamentdə bənzər müzakirələrin aparılması, qərarların qəbul edilməsi sona çatmayıb"

Erməni spiker Paşinyan tərəfindən "Keçici ədalət" tezisinin irəli sürülməsinə də münasibətini bildirib və qeyd edib ki, belə fikirlər hüquqi çərçivəyə sığmır və qanunlara əksdir. Belə ki, parlament vasitəsi ilə konstitusiyada dəyişikliklərin edilməsi məsələsi hüquqi dövlətə qarşı basqı və təhdiddir. "Bu, mənim üçün, xüsusilə, aydın deyil və parlamentdə bənzər müzakirələrin aparılması, qərarların qəbul edilməsi sona çatmayıb" deyən Ara Babloyan bildirib ki, qeyd edilənlərlə bağlı o, Ermənistan prezidenti, baş nazirlə, hüquq müdafiəçiləri, yuxarı məhkəmə şurası və beynəlxalq diplomatik missiyalarla mövcud vəziyyətlə bağlı görüşməyi planlaşdırır.

Qeyd edək ki, Ermənistan parlamentinin spikeri Ara Babloyan, eyni zamanda, bəyanatla çıxış edib və Nikol Paşinyanın baş nazirliyinin 100 günü ilə bağlı kəskin fikirlərini ictimailəşdirib. O, Paşinyandan ötən dövr ərzində təhlükəsizliyin təminatı, iqtisadi inkişaf, həyat səviyyəsinin yaxşılaşması, demokratiyanın möhkəmlənməsi proqramlarının təqdimatını, həyata keçirilməsini gözlədiyini deyib və bunların heç birinin reallaşdırılmadığını bildirib. "Görünür, 100 gün baş nazirə kifayət etməyib" deyə erməni parlament sədri qeyd edib.

***Rövşən RƏSULOV***

# Ermənistan hökuməti söz azadlığını məhdudlaşdıran addım atıb



Ermənistan Nazirlər Kabineti dövlət məmurlarının müsahibə və şərhlərinin, KİV-lərin məlumatlarının hökumətin rəsmi siyasətinə uyğun olmasına dair sərəncam hazırlayıb.

AZƏRTAC "Sputnik" agentliyinə istinadla xəbər verir ki, ölkənin baş nazirinin aparatından hökumət strukturlarına mətbuatla işin nizama salınmasına dair verilən təlimat KİV-lər və sosial şəbəkələrdə ciddi etirazlara səbəb olub. Belə ki, aparat rəhbəri Eduard Ağacanyanın imzaladığı sərəncama əsasən, hökumət üzvlərinin və idarə rəhbərlərinin mətbuata bütün açıqlama, müsahibə və şərhləri "hökumətin proqramı və strateji istiqamətləri ilə üst-üstə düşməlidir".

Bu sərəncamdan sonra baş nazir Nikol Paşinyanın ünvanına söz azadlığının məhdudlaşdırılması ittihamları səslənməyə başlayıb. Ermənistan parlamentinin xarici əlaqələr komissiyasının sədri Armen Aşotyan bildirib ki, baş nazirin aparat rəhbəri söz və mətbuat azadlığını məhdudlaşdırmaqla yanaşı, KİV-lərin operativliyinə və sərbəst ifadə azadlığına zərbə vurur. Baş nazirin mətbuat katibi Arman Yeqoyan onunla razılaşmayaraq bildirib ki, yeni qaydaların məqsədi hökumətin mətbuatla əlaqələrini nizama salmaqdan ibarətdir.

Ermənistanda əvvəllər də dövlət məmurlarının mətbuata bəyanatları ilə bağlı qaydaların sərtləşdirilməsi cəhdləri olub, lakin ilk dəfədir ki, bu addım hökumət sərəncamı ilə rəsmiləşdirilir.

# Ermənistanda hərbi qulluqçuların xidmətdən yayınmasının əsas səbəbi orduda zorakılıq hallarının artmasıdır



Ermənistanda hərbi qulluqçular xidmətdən yayınmaqda davam edirlər. İşğalçı ölkənin dörd hərbi qulluqçusu müalicə olunduqdan sonra hərbi xidmətə qayıtmaqdan imtina ediblər. Bununla bağlı cinayət işi açılıb.

Analitik-icmalçı Ehtiram Aşırlı bu barədə AZƏRTAC-a açıqlamasında bildirib ki, avqustun 18-də Ermənistan Müdafiə Nazirliyinin mərkəzi hərbi xəstəxanasında dörd əsgərin uzunmüddətli müalicə aldığı qeyd olunub. Müalicələri sona çatdırılmadığı üçün sağlamlıqlarını tam bərpa edə bilməyən hərbçilər xidmət yerinə getməkdən boyun qaçırıblar.

Müdafiə Nazirliyinin məlumatına görə, nazir müavini Cəbrayıl Balayan, Ermənistan Müdafiə Nazirliyinin hərbi polis şöbəsinin rəisi, polkovnik Aleksandr Avetisyan və digər rəsmi şəxslər məsələni aydınlaşdırmaq üçün hərbi xəstəxanada olublar. Aparılan izahat işinin nəticəsində Hovannisyan və A.Avoyan hərbi hissəyə qayıtmaq və xidməti davam etdirməyə hazır olduqlarını bildiriblər. Müdafiə Nazirliyinin hərbi polis şöbəsinin əməkdaşları ilə birlikdə Kirakosyan və Qukasyan Ermənistan Müdafiə Nazirliyinin "N" hərbi hissəsinə köçürülüblər. Lakin xidməti yerlərinə qayıtmaq istəməyən əsgərlərlə bağlı cinayət işləri başlanıb və araşdırma aparılır.

E.Aşırlı deyib ki, işğalçı ölkənin müdafiə naziri dəyişəndən sonra da orduda hərbi xidmətdən yayınma, fərarilik hallarında azalma əvəzinə, əksinə, artma müşahidə olunur. Bu, o deməkdir ki, David Tonoyanın sözlərinə baxmayaraq, Ermənistan ordusunun əsgərləri psixoloji cəhətdən hərbi xidmətə hazır deyillər. Ermənistan ordusunda hərbi xidmətdən yayınma hallarının artması təsadüfi deyil. Orduda təcavüzkarlıq, zorakılıq və homoseksuallıq hallarının yayılması bunun başlıca səbəbidir. İşğalçı ölkənin ordusundakı hərbi qulluqçular arasında psixi problemləri olan əsgərlər çoxdur. Belə getsə bir müddət sonra D.Tonoyan orduda xidmət etməyə adam tapmayacaq və özü təkbaşına xidmət edəcək, Ermənistan ordusu isə ruhi dispanser kimi fəaliyyət göstərəcək. Bu vəziyyətdə D.Tonoyanın psixi problemləri olan hərbi qulluqçularına "dəlilik kağızı" yazmaqdan başqa işi olmayacaq.

# DSX: Sərhəd mühafizəsinin etibarlı təminatı uğurla davam etdirilir

***Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən sərhəd mühafizəsinin etibarlı təminatı sahəsində tədbirlər davam etdirilir.***



DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, son günlərdə Dövlət Sərhəd Xidmətinin əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində "Şəmkir" sərhəd dəstəsinin xidməti ərazisində külli miqdarda pirotexniki vasitələrin ölkə ərazisinə qaçaqmal yolu ilə gətirilməsinin qarşısı alınıb. "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Azərbaycan Respublikasından İran İslam Respublikası istiqamətində dövlət sərhədini pozmağa cəhd edən bir nəfər saxlanılıb.



Belə ki, avqustun 15-də Gürcüstan ilə dövlət sərhədində Ehram çayının axını ilə müqabil ölkə ərazisindən üzüb gələn iki çəllək aşkarlanıb. Çəlləklərə baxış keçirilən zaman 14 ədəd "XL Hotshot 8S" markalı fişəng, 1960 ədəd "Bigtragel Crarcker" pirotexniki vasitə, 35 ədəd "X-nova", 10 ədəd "Ku Fly", 20 ədəd "Etel", 10 ədəd "Odsen-6700", 10 ədəd "Kgtell" markalı mobil telefon qutuları aşkarlanıb.

Avqustun 18-də Göytəpə sərhəd dəstəsinin xidməti ərazisində Biləsuvar rayonunun Biləsuvar kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində Azərbaycan Respublikasından İran İslam Respublikası istiqamətində nəzarət iz zolağında bir nəfərə məxsus iz aşkar olunub. Dərhal keçirilmiş sərhəd axtarışı əməliyyatı nəticəsində bir nəfər sərhəd pozucusu qismində saxlanılıb. Araşdırma zamanı saxlanılan şəxsin İran İslam Respublikası vətəndaşı, Təbriz sakini 1970-ci il təvəllüdlü Kəfafi Qasım Məhəmməd olması müəyyənləşib. Onun bu ilin fevralında Culfa sərhəd nəzarət məntəqəsindən qanuni yolla Azərbaycan Respublikasına gəlməsi, Azərbaycan vətəndaşı ilə ailə qurması, "Access Bank"a borclu olduğu üçün ölkədən çıxışına qadağa qoyulması səbəbindən dövlət sərhədini qanunsuz yolla keçməyə cəhd etməsi məlum olub. Sərhəd pozucusunun üzərində Azərbaycanda yaşamaq üçün bir illik icazə vəsiqəsi, "Samsunq" markalı mobil telefon, 1000 ABŞ dolları, 720 İran rialı, 58 manat, İrana və Azərbaycana məxsus plastik kartlar aşkarlanıb. Faktlar üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.


AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ MÜVƏQQƏTİ YAŞAMAQ ÜÇÜN İCAZƏ VƏSİQƏSİ
PERMIT FOR TEMPORARY RESIDENCE IN THE TERRITORY OF THE REPUBLIC OF AZERBAIJAN
Seriya/Series MYİ № 0398725
Soyadı / Surname: KAFAFI
Adı / Name: GHASSEM
Vətəndaşlığı / Nationality: İran İslam Respublikası / Islamic Republic of Iran
Doğulduğu yer və tarix / Place and date of birth: İran İslam Respublikası, 21.09.1970
İcazənin verilmə tarixi / Date of issue: 08.06.2018
Etibarlıdır / Date of expiry: 07.03.2019
ITAZEKAFAFI<<GHASSEM<<<<<<<<<<<<<<<<
0398725<<2IRN7009219M1903072F81AB<<3

# Zakir Həsənov: "Azərbaycanın müdafiə qüdrəti qürurverici səviyyədə artıb"

***Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov Qurban bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edib.***

AZƏRTAC xəbər verir ki, təbrikdə deyilir: "Müsəlman dünyasının mənəvi birlik, həmrəylik, qardaşlıq rəmzi olan Qurban bayramı münasibətilə Sizi ürəkdən təbrik edir, müqəddəs və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram. Mütərəqqi islami dəyər və ənənələrin uca tutulduğu Azərbaycanda dövlət səviyyəsində, ümumxalq bayramı kimi qeyd olunan müqəddəs Qurban bayramı cəmiyyətimizdə milli mənəvi dəyərlərə möhkəm bağlılığın, humanizm, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsidir.

Azərbaycana rəhbərliyinin bütün dövrlərində ümummilli lider Heydər Əliyevin apardığı dövlət quruculuğu siyasəti, azərbaycançılıq ideyası milli mənəvi amilləri yüksək tutaraq adət-ənənələrimizin, islami və bəşəri dəyərlərin qorunub



saxlanmasına xidmət edib".

Ulu Öndərin layiqli varisi Prezident İlham Əliyevin davam etdirdiyi uğurlu siyasət nəticəsində dövlətçiliyimizin iqtisadi dayaqlarının daha da möhkəmləndiyinin qeyd olunduğu təbrik məktubunda vurğulanıb ki, Azərbaycan demokratik dövlət quruculuğu prosesində böyük nailiyyətlər əldə edib, ölkəmiz islami və bəşəri, milli mənəvi dəyərlərə hörmətlə yanaşan, humanist, tolerant dövlət olaraq dünyada şöhrət qazanıb.

"Ali Baş Komandan tərəfindən atılan inamlı addımlar sayəsində ölkəmizin müdafiə qüdrəti qürurverici səviyyədə artıb. Ordumuzun 2016-cı ilin aprelində Dağlıq Qarabağda, cari ilin mayında Naxçıvanda keçirdiyi uğurlu əks-həmlə əməliyyatları nəticəsində ərazilərimizin bir qisminin düşmən işğalından azad olunması və Azərbaycan Ordusunun 100 illik yubileyi ilə əlaqədar möhtəşəm hərbi paradın keçirilməsi bu qüdrətin bariz nümunəsidir.

Bu müqəddəs bayram günündə Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsini hörmətlə yad edir, onların ailə üzvlərinə və yaxınlarına, bu yolda sağlamlığını itirmiş silahdaşlarımızı və əziz veteranları da Qurban bayramı münasibətilə səmimi qəlbdən təbrik edirəm", - deyə müdafiə nazirinin təbrikində xüsusi vurğulanıb.

Təbrik məktubunda əminliklə bildirilib ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə bundan sonra da sadiq qalan şəxsi heyət döyüş və mənəvi-psixoloji hazırlığını daha da artıraraq Ali Baş Komandanın rəhbərliyi altında hər an döyüşlərə hazır olacaq.

## "Azərsu": Bayram günlərində "955 Zəng mərkəzi" 24 saat əhalinin xidmətində olacaq

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin (ASC) "955 Zəng mərkəzi" bayram günlərində 24 saat əhalinin xidmətində olacaq. ASC-nin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Qurban bayramı ilə əlaqədar qeyri-iş günlərində istehlakçıların dayanıqlı içməli su ilə təmin edilməsi məqsədilə bütün zəruri tədbirlər həyata keçiriləcək. Bayram günlərində qəza briqadaları və "955 Zəng mərkəzi" 24 saat əhalinin xidmətində olacaq. Əhalinin içməli su ilə təchizatında dayanıqlılığın təmin olunması, baş verə biləcək hər hansı qəza hadisəsinin qarşısının alınması üçün operativ tədbirlər görüləcək. İstehlakçılardan xahiş olunur su təchizatı və kanalizasiya xidmətlərində yaranacaq problemlərlə əlaqədar "Azərsu"nun "955 Zəng mərkəzi"nə müraciət etsinlər.

# "Məkrli qüvvələrin cavabı vaxtında verilməlidir"

## *"Azərbaycanda sağlam vətəndaş cəmiyyəti nümayəndələri antimilli ünsürlərin ifşası naminə fəaliyyətini ortaya qoyubdur"*

***Son vaxtlar "hüquq müdafiəçisi" adı altında çıxış edən Leyla Yunus, Xədicə İsmayıl və xaricdə məskunlaşan bəzi siyasiləşmiş QHT rəhbərləri Azərbaycana qarşı bir növ informasiya terroru həyata keçirirlər. Sizcə, sağlam yönümlü QHT təmsilçiləri onların ifşası üçün hansı tədbirlər həyata keçirməlidir? Söhbət etdiyimiz müsahiblərimiz xaricdə gizlənərək ölkəmizə qarşı anti-təbliğat kampaniyası aparan qondarma "hüquq müdafiəçiləri"nin qanunvericiliyin tələblərinə uyğun cəzalandırılmasının vacib olduğunu bildirdilər.***

### Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov: "Leyla Yunus kimilərini maraqlandıran və düşündürən yalnız puldur"



- Azərbaycanın iqtisadi-siyasi uğurlarını, müstəqilliyinin möhkəmlənməsini, regionda söz sahibi olmasını həzm edə bilməyən qüvvələr zaman-zaman ölkəmizə qarşı iyrənc niyyətlərini müxtəlif formada ortaya qoymaqdadırlar. Əlbətdə ki, bütün bu məkrli niyyətlər hər zaman iflasa uğrayıb və bundan sonra da belə olacaqdır. Bunu həmin qüvvələr də yaxşı anlayırlar, lakin təsir vasitələrini hər dəfə yeni formatda işə salırlar. Onlar anlamırlar ki, Azərbaycan 25 il bundan öncəki dövlət deyil, artıq bizim dövlətimiz möhkəm təməllər üzərində etibarlı şəkildə qurulub. Heç bir qüvvə, heç bir təsir mexanizmi bu təməllərə təsir etmək gücündə və qüdrətində deyildir. Azərbaycan xalqı da onların məkrli niyyətlərini yaxşı anlayır. Azərbaycanda güclü dövlət modelinin əsasını müdrik xalq və bu xalqa arxalanan, onun maraqları naminə çalışan iqtidar birliyinə arxalanır. Azərbaycan dövlətinin rəhbəri hər zaman dövlətinin və xalqının maraqlarını üstün tutan siyasət yürüdür. Bu cür sərbəst siyasət yürütmək isə bir çox dövlətlərin, bir çox güclərin marağında deyil və onlar öz xalqına qarşı hər zaman əks-mövqedə duran müxtəlif insanlardan alət kimi istifadə edirlər. İstər Leyla Yunusun, istər Xədicə İsmayılın və onlar kimi milli dəyərlərdən, milli düşüncədən uzaq insanların fəaliyyəti hamımıza məlumdur və bu kimi tipləri müxtəlif maraqlar daim idarə etmişlər və bu gün də bu proses davam edir. Leyla Yunus kimilərini maraqlandıran, düşündürən yalnız puldur və o, Azərbaycanda ifşa olunandan sonra indi Hollandiyada oturub, çirkin əməllərini oradan davam etdirir. İlin əvvəlindən ölkəmizə qarşı təşkil olunmuş informasiya terrorunun əsas iştirakçıları vaxtilə cinayət əməllərinə görə həbsdə yatmış, Əli Kərimli kimilərinin pulla verdiyi saxta sənədlərlə guya siyasi fəaliyyətlərinə görə təqib olunmuş bir qrup başıpozuq, uğursuz və ailələri tərəfindən belə qəbul edilməyən insanlardır. Təbii ki, onların antimilli fəaliyyətləri məqsədli şəkildə idarə olunur və bu zəncirin bir ucu da erməni lobbisinə bağlıdır. İfadələri yalnız söyüşdən ibarət olan bu insanlar kapitalizmin sərt qanunlarının hökm sürdüyü Avropada hansı vəsaitlər hesabına yaşayırlar? Bunların təminatları haradandır? Gündə bir ölkədə peyda olan bu insanlar, heç bir yerdə işləmədikləri halda, gündəlik yaşayış xərclərini bəs hansı mənbədən qarşılayırlar? Təbii ki, onları idarə edən qüvvələr tərəfindən! Azərbaycanda sağlam vətəndaş cəmiyyəti nümayəndələri hər zaman antimilli ünsürlərin ifşası naminə fəaliyyətini ortaya qoyubdur. Bu gün ən böyük silahlardan biri olan informasiya savaşında, təbii ki, balans dövlətçilik maraqlarını dəstəkləyən insanların xeyrinədir. Bu cür fəaliyyətlər davamlı şəkildə davam etdirilir. Əlbəttə, həmin qüvvələrin söyüş və təhqirləri formasında deyil, əsaslandırılmış, məntiqli şəkildə münasibət ortadadır. Hesab edirəm ki, söyüş və informasiya terroruna qarşı mübarizədə daha ayıq-sayıq olmaq, onların iç üzünü xaricdəki vətəndaş cəmiyyəti institutlarının vasitəsilə ifşa etmək lazımdır. Dövlətə qarşı çağırışlar edən, təhdidlər səsləndirən hər bir kəsin cəzasını vermək üçün yaşadıqları ölkələrə müraciət edilməlidir. Bu cür antimilli ünsürlərin Azərbaycana ekstradisiya edilərək, qanun qarşısında cavab verməlrəini təmin etmək üçün yaşadıqları, müvəqqəti yaşadıqları ölkələrin hüquq-mühafizə orqanlarından tələb edilməlidir. Bu işdə QHT-lərimizin bir rolu da xaricdəki partnyorlarının, beynəlxalq təşkilatların dəstəyini əldə etməkdən keçir. Həmçinin, sosial şəbəkələrdə milli vətəndaş cəmiyyəti fəalları aktiv olmalıdırlar və məkrli qüvvələrin cavabı vaxtında verməlidirlər.

### "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə: "QHT-lərdən də istifadə edilir"



- Yeni dünya düzənində vətəndaş cəmiyyəti təşkilatlarının rolu əhəmiyyətli dərəcədə vacibdir. Azərbaycanda da bu tip institutların fəaliyyəti üçün imkanlar yaradılmışdır. Müxtəlif sahələrində QHT-lər öz fəaliyyəti ilə cəmiyyətin inkişafına töhfələr verirlər. Çox təəssüf ki, bəzi Qərb dövlətləri digər ölkələrə daxili işlərində, siyasi rəhbərliyə təsir etmək baxımından, QHT-lərdən də istifadə edilir. Eyni proses müxtəlif zaman kəsiyində Azərbaycanda da baş verib. Bu proseslərdə həm Leyla Yunus, həm Xədicə İsmayıl və eyni zamanda, mühacirətdə olan bəzi QHT rəhbərləri də fəal iştirak etmişlər. Bu prosesdə, məhz adıçəkilən şəxslərin birbaşa həmin qüvvələrin "cızdığı yolla" hərəkət etmələri heç kimə sirr deyildir. Necə deyərlər, görünən dağa bələdçi lazım deyil. Xatırlasaq ki, Leyla Yunusun həbsdə olduğu müddətdə, onun müxtəlif formada Qərbdə apardığı işlərə diqqət etsək, bəlli olur ki, bu qüvvələrin formalaşmış geniş şəbəkəsi mövcuddur. Şəbəkə fəaliyyəti üçün geniş maliyyə imkanları da ayrılır. Bu xarici qüvvələrin diktəsi ilə hərəkət edən qüvvələrin əsas missiyası onlara verilən tapşırıqlara uyğun hərəkət etməkdir. Ölkəmizdə fəaliyyət göstərən QHT-lərin fəaliyyətində əsas nəzərə alınan məqam dövlət və milli maraqların nəzərə alınmasıdır. Bu amilləri nəzərə almadan hansı vətəndaşın hüquq və azadlıqlarını qorumaq olar? Hansı vətəndaşın sosial təminatını reallaşdırmaq olar? Əlbəttə, bu gün vətəndaş cəmiyyəti sektorunda çalışan hər bir azərbaycanlı bütün bu meyarları əsas tutaraq, cəmiyyətin inkişafına dəstək olur. Bu gün QHT-lər problemləri uyğun qurumların diqqətinə çatdırmaqla yanaşı, həmin problemlərin həlli istiqamətində öz təkliflərini irəli sürür. İnsan hüquqlarının qorunmasından danışırıqsa, Azərbaycan hökumətinin bu sahədə də müxtəlif uğurlu təcrübələri var. Bununla bağlı bir misalı qeyd etmək istəyirəm. 2006-cı ildən ədliyyə naziri yanında tərkibi qeyri-hökumət hüquq-müdafiə təşkilatlarının nümayəndələrindən formalaşdırılmış İctimai Komitə fəaliyyət göstərir. Bu komitənin üzvlərinin heç kimə xəbərdarlıq etmədən həbsxanada məhbuslarla görüşərək, onların vəziyyəti ilə tanış olub və müvafiq monitorinq aparmaq hüquqi var. Azərbaycan haqqında mənfi rəy formalaşdırmağa çalışan bəzi QHT-lərin ifşası üçün biz QHT-lər tərəfindən müəyyən addımların atılması da vacibdir. Düzdür, daxili auditoriya onların fəaliyyəti, hansı qüvvələrin diktəsi ilə fəaliyyət göstərməsi haqqında məlumatlıdır. Amma bu yalanların mütəmadi olaraq, üzə çıxarılması həm KİV, həm də sosial şəbəkələrin imkanlarında istifadə etmək lazımdır. Digər və ən əsas məqam bu yalanların, xarici auditoriya üçün ifşa edilməsdir. Bununla bağlı QHT-lərin beynəlxalq tədbirlərdə iştirak etmələri, xarici jurnalistlərin Azərbaycana səfərlərinin təşkil edilməsi vacib məsələdir. Eyni zamanda, xarici auditoriya ünvanlanmış ixtisaslaşmış saytların fəaliyyətinin genişləndirilməsi də bu prosesdə mühüm rol oynaya bilər.

**GÜLYANƏ**

## Serj Sarkisyanın qohumu beynəlxalq axtarışa verilib



Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın əmisi oğlu Narek Sarkisyan beynəlxalq axtarışa verilib. Ölkənin hüquq-mühafizə orqanları "İnterpol"la birgə onun tapılması ilə məşğuldur. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, bunu respublika polisinin rəhbəri Valeri Osipyan bildirib.

Narek Sarkisyan qanunsuz silah gəzdirməkdə, narkotik vasitələr saxlamaqda, dələduzluqda və insan oğurluğunda ittiham edilir. Cinayət materiallarına əsasən, 2017-ci ildə Yerevanda gecə klubu açmaq istəyən biznesmeni Narekin evinin zirzəmisinə salıb, işgəncə verilərək onu bu fikirdən çəkindirməyə çalışıblar. Narek Sarkisyan işgəncələrdə şəxsən iştirak edib və biznesmeni tapança ilə hədələyib.

Qeyd edək ki, bir qədər əvvəl sabiq prezidentin qardaşı Levon Sarkisyan və onun digər yaxın qohumu "qanunsuz varlanma" maddəsi üzrə axtarışa verilmişdi. Son məlumata görə, Ermənistanın sabiq müdafiə naziri Mikael Arutunyan barəsində də dövlətlərarası axtarış elan olunub. Onun Rusiya ərazisində olduğu bildirilir.

## Rusiya 2,7 milyon vətəndaşın ölkədən çıxışına qadağa qoyub

Rusiyanın Məhkəmə Pristavları Federal Xidməti 2018-ci ilin ilk yarısı üçün hesabatını açıqlayıb. AZƏRTAC xəbər verir ki, hesabata əsasən, yanvar-iyun ayları ərzində vergi borclarına görə 2,7 milyon vətəndaşın ölkədən çıxmasının qarşısı alınıb. Bu rəqəm bütövlükdə 2016-cı ilin göstəricisi ilə müqayisədə çoxdur. 2016-cı ildə ümumilikdə 2,3 milyon vətəndaşın ölkədən çıxmasına qadağa qoyulmuşdu. Belə görünür ki, bu il ölkədən çıxışına məhdudiyyət qoyulmuş vətəndaşların sayı keçən ilkindən çox olacaq. Ötən il bu göstərici 3,4 milyon nəfər idi.



Altı ay ərzində geri alınmış vergi borcunun məbləği isə 321 milyard rubldan (3,88 milyard manat) çox olub. Bununla belə, yol cərimələrinin məbləğində azalma qeydə alınıb, pristavlar yol hərəkəti qaydalarını pozanlardan cəmi 6,2 milyard rubl (160 milyon manat) cərimə yığa bilib.

Pristavların təqdim etdiyi statistikaya əsasən, bu, son dərəcə təsirli tədbirdir, ilin ilk altı ayı ərzində ölkədən çıxışına qadağa qoyulmuş vətəndaşlar 31 milyard rubl (800 milyon manat) vergi borcunu büdcəyə ödəyib. Keçən ildə isə bütün il üzrə bundan az - 30 milyard rublun büdcəyə ödənilməsinə nail olunub.

## Bakıda taksi dayanacaqlarının yerinin müəyyənləşdirilməsi davam edir

Paytaxtda taksi dayanacaqlarının yerinin müəyyənləşdirilməsi davam edir. AZƏRTAC xəbər verir ki, bu barədə Bakı Nəqliyyat Agentliyinin (BNA) ictimaiyyətlə əlaqələr və maarifləndirmə şöbəsinin müdiri Mais Ağayev deyib.

O bildirib ki, hazırda Bakıda təxminən 180 taksi dayanacağı məntəqəsi var. BNA-nın mütəxəssisləri tərəfindən qanunsuz taksi dayanacaqlarının müəyyən olunaraq ləğv edilməsinə çalışılır və yeni taksi dayanacaqlarının yeri müəyyən olunur.

## Oleq Kuznetsov: "Türkiyə və ABŞ arasında olan fikir ayrılığı daha çox siyasi məzmun daşıyır"

***Son günlər Vaşinqton və Ankara münasibətlərində gərginliyin artması müşahidə olunur. Avqustun 17-də ABŞ prezidenti Donald Tramp Türkiyədən idxal olunan alüminium və polada qoyulan rüsumun artması ilə bağlı bəyanat verdi. Trampın bu qərarı, Türkiyə lirəsinin minimuma enməsinə səbəb oldu. Buna cavab olaraq, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-dan idxal olunan tütün məhsulları, spirtli içkilər və avtomobil də daxil olmaqla, bir neçə məhsulun rüsumunu artırdı.***

Tarixçi Qafqazşünas Oleq Kuznetsov Eurasia Diary-nin müxbirinə verdiyi müsahibədə ABŞ və Türkiyə dövlətləri arasında əslində nə baş verdiyi və bu fikir ayrılığından nə gözlənildiyi barədə danışıb.

*- Sizin fikrinizcə, Türkiyə və ABŞ arasında son günlərdə nə baş verir?*

- Son zamanlarda Türkiyə ilə ABŞ arasındakı bir sıra anlaşmazlıqları müşahidə edirik. Bura Türkiyədə baş vermiş uğursuz dövlət çevrilişindən başlayaraq, Tramp hökumətinin tətbiq etdiyi ən son sanksiyalar daxildir. Türkiyənin özünün alüminium istehsalçısı olmadığını nəzərə alsaq, Tramp Türkiyə Respublikasında alınan dəmir və alüminium üzərində rüsumu da artırır.

Vergi rüsumu Rusiyaya qarşı tətbiq olunduqda, bunu istehsalçıya qarşı sankiyalar kimi qiymətləndirmək olar. Lakin indiki halda, vasitəçi ölkənin istehsalçı ölkənin infrastrukturuna ciddi zərər verməyəcəyini nəzərə alaraq, ona qarşı məhdudiyyətlər tətbiq etmək cəhdi var. Beləliklə, burada iqtisadi baxımdan çox siyasi məzmun var.

Siyasi məzmun Türkiyənin hal-hazırda NATO sistemində ən zəif bənd olması ilə əlaqədardır. İlk növbədə Türkiyə Suriya istiqamətində müstəqil işlər aparır və bu və ya digər halda Qəzza zolağında Həması dəstəkləyir. Hazırda Türkiyə öz suverenliyini müdafiə etmək məcburiyyətindədir və Asiyadakı ən böyük oyunçular ilə əlaqələr qur-



malıdır. Bunların siyahısına ABŞ-ın ənənəvi rəqibləri - Rusiya və İran daxildir. Amerika açıq şəkildə İranın düşmən, Rusiyanın rəqib, Türkiyənin isə ABŞ üçün inadkar bir müttəfiq olduğunu bildirib. Təbii ki, yaranan vəziyyətdə Tramp Türkiyəni ABŞ və NATO təsiri altına salmağa çalışır. Lakin hərbi-siyasi planların işə yaramadığını görüb, ABŞ iqdisadi yöndə təzyiqə əl atdı. Onu da qeyd edim ki, bu, yalnız ilk baxışdan iqdisadi hücum kimi görünür.

*- Bu yaxınlarda Türkiyə prezidenti Amerika istehsalı olan elektron avadanlıqlara qarşı və ölkəsində dolların istifadəsinə boykot elan etdi. Fikrinizcə, Türkiyə Amerika istehsalı olan avadanlıqları nə ilə əvəz edə bilər?*

- Düşünürəm ki, Türkiyə ABŞ-ı Çin və Cənub-Şərqi Asiyadan gələn avadanlıqlar ilə əvəz edə bilər. Əlbəttə, Türkiyə ABŞ-a qarşı çox böyük kontrsanksiya tətbiq edir. Ancaq Türkiyə Çin məhsulları ilə öz təhlükəsizliyini təmin edə biləcəyini sübut edərsə, subtropik zonada olan çox sayda ölkə Türkiyə nümunəsini təkrar edə bilər. Rəcəb Tayyib Ərdoğan Türkiyənin ən azı dörd ölkə ilə, Çin, Rusiya, Ukrayna və İran ilə ticarət əlaqələrində dollardan istifadə etməyəcəyini bəyan etdi. Bunlar Türkiyənin xarici ticarət dövriyyəsinin 1/3 hissəsini təşkil edən ölkələrdir. Bu, bazarda dollar kütləsinin azaldılmasına və dolayısı ilə dolların devalvasiyasına gətirib çıxaracaq. Bu da bir müddət Amerikanın pul çap edən dəzgahını dayandıra bilər. Lakin Türkiyənin bu qərarı ABŞ üçün əlverişli ola bilər. Belə ki, Tramp özünün ilk prezidentlik dövründə xarici borcunu 1 milyon azaltmaq istəyini bildirmişdi. Dolların rədd edilməsi ABŞ-ın saxlayacağı və gizlədəcəyi sərbəst dollar kütləsinin formalaşmasına gətirib çıxara bilər və sonra müəyyən bir anda yenə bazara çıxarıla bilər. Bu mənada Ərdoğanın mövqeyi iqtisadi cəhətdən hesablanmış deyil daha çox populist görünür.

*- Türkiyənin NATO-nu tərk edəcəyini gözləmək olarmı?*

- Hazırda Türkiyə bilərəkdən bəzi əlaqələrini kəsib, müstəqil şəkildə hərəkət edir. Ancaq bu günə qədər Türkiyənin hərbi sistemi NATO sisteminə tamamilə inteqrasiya olunub və hazırlıqsız şəkildə Türkiyə ittifaqı tərk edə bilməz. Çünki, həmin anda Türkiyə beynəlxalq terrorçuların hücumuna məruz qalacaq. Buna görə, NATO-nun tərkibindən çıxmazdan əvvəl, o, ilk növbədə öz müdafiə sistemini hazırlamalıdır. Belə görünür ki, Türkiyə buna yavaş-yavaş nail olur. Türkiyə Rusiyadan anti-hava əleyhinə müdafiə sisteminin zenit-raket kompleksinin alışını həyata keçirir. Yəni, Türkiyə gələcəkdə İran və KTMT-yə hərtərəfli inteqrasiya edəcək. Yaxud da su və havada təhlükəsizliyin təmin edilməsi Rusiya və Türkiyə arasında ikitərəfli inteqrasiyanın əsasıdır.

Bu, Türkiyə və Rusiya arasında ilk növbədə hərbi-texniki, daha sonra isə iqdisadi çevrilişdir. Sanksiyaları tətbiq etməklə Tramp bir tərəfdən Türkiyəni qərb dünyasından uzaqlaşdırır, digər tərəfdən isə Rusiya və İranla yaxınlaşmasına səbəb olur. Amerikanın Suriya münaqişəsində iştirakı, həmçinin İraqdakı rolu danılmazdır. Qeyd edim ki, bu iki ölkə, Yaxın Şərq regionunda Türkiyə, İran, Rusiya və Azərbaycanı təhdid edən kollektiv qeyri-sabitlik mənbəyidir. Bu səbəbdən, əhalisi çox olan və siyasi baxımdan inkişaf etmiş ölkələr siyasi suverenliyini itirməmək üçün birləşməlidirlər. İndi Tramp ABŞ-ın maraqları baxımından ağıllı, ancaq regional reallıqları nəzərə almayacaq qədər ağılsız bir siyasət həyata keçirir. O, regional siyasətində ABŞ və onun NATO-dakı müttəfiqlərinin təzyiqlərinə qarşı çıxa biləcək ölkələrin ittifaqını qurur.



## Ermənistan dəmir yollarının Fransaya verilməsi prosesinin hazırlığı başlandı

"Ermənistandakı Rusiya şirkətləri bu ölkənin qanunları əsasında işləyir. Demək olar ki, qanunları pozmurlar. "Cənubi Qafqaz Dəmir Yolları" (CQDY) şirkəti Ermənistanın dəmir yollarının konsession idarəçisi olan Rusiya kompaniyasıdır. Qanunlara daha ciddi riayət edən strukturlardandır. Lakin bu "CQDY"-nı N.Paşinyanın təzyiqlərindən qoruya bilmədi. Qəflətən yoxlamalar başladı. "CQDY"-nın baş direktoru S.Valko N.Paşinyanla görüşsə də yoxlamaları dayandırmadı. V.Putinlə telefonla danışması da N.Paşinyanda "CQDY"-dakı yoxlamaları genişləndirməyə stimul yaratdı". Bunu SİA-ya açıqlamasında SİTM-in sədri Mübariz Əhmədoğlu deyib.

M.Əhmədoölunun fikirlərinə görə, yoxlamalardan sonra açıqlanan rəqəmlər maliyyə pozuntularının çox cüzi olduğunu göstərir: "Görünür, özləri süni sürətdə bu rəqəmi düzəldə biliblər. "CQDY"-dakı yoxlamaların motivasiyası bəllidir: Vaxtilə Ermənistan Dəmir Yollarını Fransa konsessiya idarəçiliyə götürmək istəyirdi. Fransa indi də bu məsələdən ötrü rəsmi Yerevana iradlarını bildirir. N.Paşinyan oktyabrda Yerevanda keçiriləcək Frankofoniya sammiti ərəfəsində Fransa prezidenti E.Makronun Ermənistana səfərinə hədiyyə hazırlayır. Seçdiyi metod orijinal deyil. Prezident olarkən R.Koçaryan vaxtilə yoxlamalar vasitəsilə "Sibir" (RF) aviakompaniyasını müflisləşdirdi, mal-mülkünü əlindən aldı, ölkədən qovdu. Nəticədə, "Armavia" kompaniyası yarandı və o bunu uşaqlıq dostu, yerlisi M.Baqdasarova bağışladı". Politoloq qeyd edib ki, N.Paşinyan Rusiyanı aldada biləcəyinə tam əmindir: "Onun düşüncəsinə görə, N.Paşinyandan da qat-qat zəif ermənilər Rusiyanın yüksək çinli rəsmilərini barmaqlarına dolayıblar".

# "Putin Paşinyanı ciddi siyasətçi kimi qəbul etmir"

## Azər Badamov: "Ermənistanda yeni bir küçə adamı qabağa çıxaraq hakimiyyəti ələ keçirəcək"

*- Azər müəllim, Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı imzalanan Konvensiya, sizcə, Dağlıq Qarabağ münaqişəsinin həllinə hansı imkanlar verə biləcək?*



Müsahibimiz millət vəkili Azər Badamovdur

- Ümumiyyətlə, ölkəmizin maraqlarına uyğun beynəlxalq səviyyədə qəbul olunmuş hər bir sənəd Azərbaycanın iqtisadi gücünün artmasına, bizi dəstəkləyən dostlarımızın çoxalmalarına, güclənmələrinə öz töhfəsini verir. Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı imzalanan Konvesiyanın ölkəmiz üçün böyük iqtisadi və siyasi əhəmiyyəti olacaqdır. Xəzəryanı ölkələrin Xəzərdə iqtisadi maraqları birinci yerdə durur. Konvensiyanın, məhz hər 5 ölkənin iqtisadi maraqlarına uyğun gəlməsi onun siyasi gücünü artırır. Konvensiya Xəzəryanı 5 ölkəni bir-biri ilə qarşılıqlı hörmət əsasında daha çox bağlayır. Bu bağlantı ölkəmizin ərazi bütövlüyünün təmin olunmasına və Dağlıq Qarabağ münaqişəsinin ədalətli həll edilməsində Azərbaycana dəstək olacaqdır. Xəzərin hüquqi statusu haqqında imzalanan Konvensiya Azərbaycandan tranzit nəqliyyat dəhlizləri keçdiyinə görə, hamıdan çox ölkəmizə iqtisadi səmərə gətirəcəkdir ki, bu da Azərbaycanın iqtisadiyyatının güclənməsinə xidmət edəcəkdir. Ulu Öndər Heydər Əliyev demişkən, iqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir. Məhz iqtisadiyyatımızın sürətlə güclənməsi ordumuzun inkişafına öz töhfəsini verəcəkdir ki, bu da münaqişənin həll olunmasında Azərbaycana daha inamla hərəkət etməyə imkan yaradar.

*- Ermənistanda siyasi xunta və eləcə də, bəzi düşünən beyin mərkəzləri Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı imzalanan Konversiya ilə Ermənistanın regionda mövcud ağır durumunun bir qədər də dərinləşəcəyini qeyd edirlər. Sizcə, böhranlı durum, nəhayət, Ermənistanı Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə məcbur edə biləcəkmi?*

- Təbii ki, bu, belə olmalıdır. Çünki bu gün Ermənistanda cərəyan edən hadisələr bunu deməyə imkan verir. Ermənistandakı iqtisadi tənəzzül və dözülməz həyat şəraiti siyasi hakimiyyətdə olan cinayətkar rejiminin dövlət idarəçiliyindən uzaqlaşdırılmasına şərait yaratdı. Əgər orada iqtisadi inkişaf olsaydı, sarkisyanların və koçaryanların hakimiyyətdən uzaqlaşdırılması barəsində düşünmək olmazdı. Paşinyan böyük vədlərlə hakimiyyətə gəldi və gördü ki, Ermənistanın iqtisadi gücü ilə ölkənin sabahı üçün heç bir iş görmək mümkün deyil. Ona görə də, hələ ki, ölkədəki qaniçən cəllad rejimini yaradan, əli günaha batmış və cəmiyyətin nifrətinə çevrilmiş koçaryanlar və sarkisyanlarla mübarizə aparmaqla xalqın diqqətini o istiqamətə çəkməklə başını qatır. Bu da müəyyən müddətə qədər davam edəcək və sonra xalq Paşinyandan hər hansı bir sosial-iqtisadi hərəkət istəyəcək. Buna da Paşinyanın imkanı olmayacaq, yenidən xalq Paşinyana qarşı yönələcək və Ermənistanda yeni bir küçə adamı qabağa çıxaraq. hakimiyyəti ələ keçirəcək. Qeyd etmək istəyirəm ki, hər bir siyasi çevriliş Ermənistanın məhvini daha da sürətləndirəcək. Bunun baş verməməsi üçün yeganə yolu Azərbaycanın torpaqlarından əl çəkmək, qonşu ölkələrə ərazi iddiaları qaldırmamaq və Azərbaycanla qonşuluq münasibətləri yaratmaqdan keçir. Xəzərin hüquqi statusu haqqında imzalanmış Konvensiya Xəzər regionuna sülh və əməkdaşlıq gətirir, Azərbaycanı gücləndirir. Azərbaycanın güclənməsi Ermənistanın iqtisadi blokadasının daha da möhkəmləndirilməsinə imkan yaradır və bu da Ermənistanı içindən dağıdır. Bir müddət keçəndən sonra Ermənistanın, nəinki işğal etmiş Dağlıq Qarabağ və onun ətraf rayonlarını saxlamağa, hətta öz ölkəsini saxlamağa da gücü qalmayacaq. Nəticədə, Ermənistanı ölkə olaraq, dünya xəritəsindən silinməyə doğru aparacaqdır.

*- Paşinyanla Rusiya prezidenti Vladimir Putin arasında telefon danışığında Dağlıq Qarabağla bağlı müzakirələr aparıldığı qeyd olunur. Sizcə, Putin, nəhayət, regionda sülhün təmin olunması üçün Paşinyana təsir göstərə biləcəkmi?*

- Birinci, onu qeyd etmək istəyirəm ki, dünya siyasətçiləri, o cümlədən, Putin Paşinyanı ciddi siyasətçi kimi qəbul etmir. Ona görə də, bu gün Putinin təsiri ilə bir gün ərzində işğala son qoydurmağını mümkün saymıram. Təbii ki, Putin regionda sülhün təmin olunması üçün Paşinyana təsir göstərə bilər. Həm də düşünürəm ki, sülh yollu ilə torpaqlarımızın işğaldan azad edilməsində də əsas ağırlıq Rusiyanın üzərinə düşür. Çünki Ermənistanın bir ölkə kimi nəfəs alması birbaşa Rusiyanın iqtisadi dəstəyi ilə bağlıdır. Amma bu gün Ermənistandakı mövcud şəraitlə Dağlıq Qarabağ münaqişəsini bir gündə həll etməyə imkan verəcəyini düşünmürəm. Əgər bu gün Paşinyan Azərbaycanla razılığa gəlib torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı sənədə imza atsa, sarkisyanlar və koçaryanlar yenidən hərəkətə keçərək, hakimiyyəti işğal edəcəklər. Qarabağ klanının yenidən hakimiyyətə qayıtması mövcud vəziyyətin sülh yolu ilə nizamlanmasını çətinləşdirər və müharibə qaçılmaz olar. Ona görə Paşinyan Ermənistanda təmizləmə işləri aparmalı, özünə əks çıxa biləcək qüvvələri neytrallaşdırmalıdır. Cəmiyyəti yavaş-yavaş sülhə hazırlamalı və sülh yolu ilə ərazi iddialarından əl çəkməlidir. Düşünürəm ki, bu, belə də olacaqdır. Çünki Ermənistanın alternativ yolu yoxdur. Güclü iqtisadiyyatı və ordusu olan Azərbaycanın qabağında ermənilər bundan sonra uzun müddət dayana bilməzlər.

**GÜLYANƏ**

## Politoloq Qabil Hüseynli: "Ermənistan törətdiyi bütün əməllərinə görə cavab verəcəkdir"



"Bu, erməni vandalizminin, erməni vəhşiliyinin əyanı ifadəsidir. Ermənilər bütün dünyada Azərbaycan torpaqlarının onlar tərəfindən deyil, guya qondarma Qarabağ özünümüdafiə qüvvələri tərəfindən zəbt edilməsi barədə şayiələr yayırlar və heç zaman özlərinin Azərbaycan torpaqlarını istila etmədiklərini söyləyirlər. Amma bu, bir faktdır ki, Dağlıq Qarabağ özünümüdafiə qüvvələri deyilən başıpozuq dəstələrin heç 1500 - 2000 əsgəri yoxdur". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq Qabil Hüseynli avqustun 23-də Füzuli və Cəbrayıl rayonlarının ermənilər tərəfindən işğal olunmasının səbəblərindən danışarkən bildirib. Onun sözlərinə görə, Cəbrayılın bir özünümüdafiə batalyonu qondarma Dağlıq Qarabağın özünümüdafiə batalyonunun öhdəsindən asanlıqla gələ bilərdi: "Yəni Azərbaycan torpaqlarının işğalında o cümlədən də, Füzuli və Cəbrayılın qəsb edilməsində təkcə Ermənistan qoşunları yox, həm də Rusiya qoşunları yaxından iştirak ediblər. Ümumiyyətlə, Azərbaycan torpaqlarının işğalı Rusiyanın yaxından köməyi ilə Ermənistan tərəfindən işğal edilib. Amma təəssüflər olsun ki, biz hələ də bütün dünyada Ermənistanı işğalçı dövlət kimi tanıtdıra bilmirik. Sadəcə olaraq, "işğal olunmuş torpaqlar" kəlməsi həm ATƏT-in Minsk Qrupu həmsədrləri, həm də BMT orqanları tərəfindən də səsləndirilib. BMT, uzaqbaşı işğal edilmiş ərazilərin Ermənistan bandit birləşmələri tərəfindən həyata keçirildiyini söyləyir ki, bu da real həqiqəti əks etdirmir". Politoloqun sözlərinə görə, Ermənistanın işğal amilində iştirak etməsi faktını sübut edə bilmədiyimizdən, Ermənistana qarşı işğalçı dövlət kimi sanksiyalar tətbiq etdirə bilmirik, onu beynəlxalq məhkəmələrə verə bilmirik: "Bu istiqamətdə ruhdan düşməməliyik, ərazilərimizin işğal etmiş bir dövlət kimi tanıdılmasına və hüquqi kanallarla onun ifşasına və məsuliyyətə cəlb edilməsinə çalışmaqda davam etməliyik. Onsuz da gec tez işğalçı ölkə olan Ermənistan törətdiyi bütün əməllərinə görə, cavab verəcəkdir. Çünki bu, bir faktdır ki, Ermənistan işğalçı bir dövlətdir.

**GÜLYANƏ**

## İsveçdə qırıcı təyyarə quş sürüsü ilə toqquşaraq yerə düşüb

İsveç hərbi hava qüvvələrinə məxsus "Saab JAS 39 Grippen" qırıcı təyyarəsi quş sürüsü ilə toqquşmadan sonra yerə düşüb. AZƏRTAC yerli KİV-lərə istinadla xəbər verir ki, hadisə ölkənin Ronnebi bələdiyyəsində səhər saatlarında baş verib.



Qırıcı təqribən 1000 metr yüksəklikdə qəzaya uğrayıb. Pilot təlimata əsasən qəzadan ciddi zədələnən təyyarəni vaxtında tərk edib.

Qeyd edək ki, "JAS 39 Gripen" İsveçin məşhur aerokosmik şirkəti Saab tərəfindən istehsal edilən dördüncü nəslə aid birmotorlu qırıcı təyyarədir.

## Gömrük nəzarətindən gizlədilən siqaretlər aşkarlanıb



Gömrük nəzarətindən gizlədilən siqaretlər aşkarlanıb. Dövlət Gömrük Komitəsinin (DGK) mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Tovuz Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə daxil olan əməliyyat məlumatı əsasında, idarənin "Sınıq Körpü" gömrük postunda Gürcüstandan Azərbaycana "Opel Vectra" markalı nəqliyyat vasitəsi ilə gələn Azərbaycan vətəndaşının avtomobili saxlanılıb və gömrük baxışı keçirilib. Baxışdan öncə, sürücü üzərində və idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilmiş hər hansı predmetin olmadığını bildirib. Yoxlama zamanı, vətəndaşın üzərində olan gödəkcənin içərisindən 3 min 200 ədəd "King" markalı siqaretlər aşkar olunub. Faktla bağlı araşdırma aparılır.

## Ukrayna yeni aviasiya raketini sınaqdan keçirib



Ukrayna yeni istehsal etdiyi "Oskol" 80 millimetrlik kalibrli aviasiya raketini sınaqdan keçirib. AZƏRTAC xəbər verir ki, Çerniqov poliqonunda keçirilən sınaqda Mi-8 helikopteri 300 ədəd PC-80 "Oskol" aviasiya raketinin atışını həyata keçirib. Üç günlük sınaq müddətində raketin Mi-8 helikopterində istifadəsi üçün onun taktiki-texniki imkanlarının məqsədəuyğun olduğu müəyyənləşib.

# Azərbaycanda işsizliyin aradan qaldırılmasında önəmli addımlar atılıb

## *Cari ilin birinci yarısında ölkədə 122,3 min yeni, o cümlədən, 64,7 min daimi iş yeri açılıb*

***Davamlı inkişafı və spesifik milli inkişaf modeli ilə tanınan Azərbaycanın uğurlu inkişafı təmin edilir, ölkəmizdə təhlükəsizlik yüksək səviyyədə qorunur və ictimai-siyasi sabitlik möhkəmlənir. Təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyası Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Həyata keçirilən siyasi-iqtisadi idarəçilik modeli nəticəsində, ölkəmizdə bütün sahələrdə uğurlar və yeniliklər əldə edilir, Azərbaycan modeli dünya ölkələri üçün nümunəyə çevrilib.***

Regionların sosilal-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində, respublikamızın bütün bölgələri yeni inkişaf mərhələsini yaşayır. Regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü siyasətin davamı olaraq, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, makroiqtisadi sabitliyin təmin olunmasında, regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsində, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində və yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol oynayır.

Azərbaycanın maliyyə imkanlarının artması, ölkəmizin transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməsi, müasir tələblərə cavab verən infrastukturun yaradılması, ən yeni texnologiyalara əsaslanan müəssisələrin fəaliyyətə başlaması, sahibkarlığın dəstəklənməsi, biznes mühitinin yaxşılaşdırılması Azərbaycanın dünyada nüfuzunun daha da artmasına və iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəlməsinə səbəb olub. "Bizim iş üslubumuz belədir: bölgələrdə problemi müəyyən etmək, onun həlli üçün lazım olan yolları müəyyən etmək, axtarmaq və tədbirlər planı hazırlamaq. Bunu etmək üçün artıq bizim maliyyə imkanlarımız da var" - deyən dövlət başçısının həyata keçirdiyi uğurlu strategiya nəticəsində, Azərbaycan qısa müddətdə, dünyanın sürətlə inkişaf edən, bütün sahələrdə yeniləşən dövlətlərindən birinə çevrilib.



İnsanların güzəranının daha da yaxşılaşdırılması yalnız maaşların, pensiya və müavinətlərin artırılması ilə yekunlaşmır. Bu istiqamətdə ən vacib məsələlərdən biri də əhalinin məşğulluğunun təmin edilməsidir. Son illər iqtisadiyyatın inkişafında əldə edilən misilsiz nailiyyətlər bu məqsədin də uğurla reallaşmasına şərait yaradıb. Azərbaycanda işsizliklə bağlı məsələlər çox uğurla həll olunur, bu istiqamətdə çox önəmli addımlar atılır. Regionların sosial-iqtisadi inkişafına istiqamətlənmiş üçüncü Dövlət Proqramının icrasını əhatə edən 2014-cü il yanvarın 1-dən bu il iyulun 1-dək olan dövr ərzində, ümumilikdə, 843,5 min olmaqla, 595,1 min daimi iş yeri yaradılıb.

Statistikaya əsasən, bu ilin birinci yarısında isə, ölkədə 122,3 min yeni, o cümlədən, 64,7 min daimi iş yeri açılıb. Bu dövrdə yaradılmış iş yerlərinin 44,2 faizi qeyri-dövlət sektorunda olub. Yeni iş yerlərinin 25 faizi Bakının, 1,1 faizi Naxçıvan Muxtar Respublikasının, 73,9 faizi regionların, o cümlədən, 40,8 faizi Aran, 8,5 faizi Gəncə-Qazax, 6,8 faizi Lənkəran, 4,7 faizi Yuxarı Qarabağ, 4,5 faizi Abşeron, 3,1 faizi Şəki-Zaqatala, 2,7 faizi Dağlıq Şirvan, 2,6 faizi Quba-Xaçmaz, 0,2 faizi isə Kəlbəcər-Laçın iqtisadi rayonlarının payına düşüb. Daimi iş yerlərinin 8,6 faizi yeni yaradılmış müəssisə və təşkilatlarda, 34,3 faizi mövcud müəssisə və təşkilatlarda, 0,4 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 56,7 faizi isə fərdi sahibkarlıq subyektləri tərəfindən yaradılıb.

Hüquqi şəxslər tərəfindən yaradılmış daimi iş yerlərinin 17,8 faizi tikinti, 17,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 16,1 faizi su təchizatı; tullantıların təmizlənməsi və emalı, 10,9 faizi emal sənayesi, 9,5 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 3,7 faizi peşə, elmi və texniki fəaliyyət, 3,6 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar, 3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 17,8 faizi isə digər iqtisadi fəaliyyət növləri üzrə açılıb.

Bununla yanaşı, birinci yarımildə ölkədə 22,6 min iş yeri bağlanıb. Bu dövrdə bağlanmış iş yerlərinin 91,4 faizi qeyri-dövlət sektorunun payına düşüb. İş yerlərinin 74 faizi fərdi sahibkarlıq subyektlərinin, 5,7 faizi müəssisə və təşkilatların fəaliyyətlərinin dayandırılması, 20,3 faizi isə fəaliyyət göstərən müəssisə və təşkilatlarda aparılan ixtisarlar ilə əlaqədar bağlanıb.

Statistik rəqəmlərdən, bir daha aydın olur ki, dövlət tərəfindən regionların inkişafına xüsusi diqqətlə yanaşması, ilk növbədə, Azərbaycanda sahibkarlığın inkişafı yolu ilə uzun illər özünü ciddi sosial problem kimi göstərmiş işsizliyin tədricən aradan qaldırılmasına, əhalinin faydalı məşğulluğunun təmin edilməsinə səbəb olub. Dövlətin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində, son 15 ildə yoxsulluq şəraitində yaşayanların sayı dəfələrlə aşağı düşüb. Həyata keçirilən iqtisadi siyasətin nəticəsi olaraq, yaxın bir neçə ildə Azərbaycanda, ümumiyyətlə, yoxsulluq həddində yaşayan insan qalmayacaq. Buna nail olmaq Azərbaycanda sosial-iqtisadi siyasətin əsas məqsədlərindən birini təşkil edir. Ölkəmizdə yeni yaradılan iş yerləri də bu istiqamətdə atılan vacib addımlardan biridir.

***Zümrüd BAYRAMOVA***

## "Aqrolizinq" bu il istehsalçılara 130,4 milyon manatlıq texnika verib

Cari ilin birinci yarısında "Aqrolizinq" ASC-nin xətti ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına 130,4 milyon manat dəyərində 815 ədəd müxtəlif növ traktor verilib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, istehsalçılara, həmçinin sözügedən məbləğ dəyərində 260 ədəd kultivator, 124 ədəd traktor yedəkləri (qoşqular), 313 ədəd səpici aqreqat, 146 ədəd çiləyici və tozlayıcı, 307 ədəd kotan, 287 ədəd mala, 47 ədəd otbiçən, 59 ədəd pambıqyığan maşın, 53 ədəd ot və küləş presləyən, 11 ədəd bağarası frez, 24 ədəd ot dırmığı, 12 ədəd taxıl toxumu təmizləyən, 19 ədəd gübrəsəpən maşın, 115 ədəd taxılyığan kombayn və 331 ədəd digər kənd təsərrüfatı maşın və avadanlıqları satılıb və ya verilib.

# Sosial xidmət müəssisəsindəki sağlamlıq imkanları məhdud uşaqlarla görüş keçirilib

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev nazirliyin sağlamlıq imkanları məhdud uşaqlar üçün Bakının Xəzər rayonunda yerləşən 1 saylı sosial xidmət müəssisəsində uşaqlara stasionar şəraitdə göstərilən sosial xidmətlərlə tanış olub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, nazir müəssisənin əməkdaşları ilə görüşündə Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin bu sahənin xidmət müəssisələrinin hərtərəfli təminatının da gücləndirilməsinə səbəb olduğunu vurğulayıb. Bu istiqamətdə Heydər Əliyev Fondu tərəfindən böyük dəstəyin göstərildiyini bildirən S.Babayev Fondun "Uşaq evləri və internat məktəblərinin inkişafı" Proqramı çərçivəsində sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisələrində əsaslı təmir və yenidənqurma işləri aparıldığını diqqətə çatdırıb. Nəticədə bu müəssisələrdə uşaqlar üçün nümunəvi yaşayış şəraiti ilə yanaşı, onların funksional çatışmazlıqlarının aradan qaldırılmasına, bacarıqlarının inkişaf etdirilməsinə yönələn reabilitasiya əhəmiyyətli işlərin aparılması üçün geniş imkanlar yaradılıb.



Son illərdə dövlət başçısının tapşırığı ilə görülən işlərin nəticəsi olaraq, nazirliyin Uşaq Bərpa Mərkəzində müasir tələblərə uyğun bərpa-müalicə şəraiti mövcuddur. Eləcə də Heydər Əliyev Fondunun layihəsi kimi Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsinin yaradılması belə uşaqlar üçün tibbi-sosial reabilitasiya infrastrukturunun genişlənməsinə səbəb olub. Bu imkanlardan maksimum istifadə etməklə sağlamlıq imkanları məhdud uşaqların yenidən cəmiyyətə qazandırılması üçün səylər daha da artırmaq nazirliyin əsas fəaliyyət prinsiplərindəndir.

S.Babayev sosial xidmət müəssisəsindəki sağlamlıq imkanları məhdud uşaqlarla görüşüb. Nazir uşaqların hazırladıqları əl işlərinə baxıb, onların sərgilərdə nümayiş olunması, təbliği işlərinin genişləndirilməsini tapşırıb. Müəssisənin sakinlərindən biri hazırladığı əl işini nazirə xatirə hədiyyəsi olaraq bağışlayıb.

# "İşimizin bir hissəsini sosial şəbəkələrə köçürməliyik"

*"İnsanların məlumatlandırılması xətti ilə pozuculuğa xidmət edən planların qarşısını ala bilərik"*

**Son vaxtlar sosial şəbəkələrdə Azərbaycana qarşı informasiya terroru həyata keçirilir. Söz yox ki, məkrli və pozucu siyasət xaricdən idarə olunur. Sual olunur: Azərbaycan mətbuatı, qəzet baş redaktorları ölkəmizə qarşı anti-təbliğat kampaniyasının qarşısının alınması üçün hansı əməli addımın atılmasını vacib hesab edirlər?**

"Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev: **"Medianın üzərinə böyük yük düşür"**



- Sosial şəbəkələr son vaxtlar çox ciddi problem mənbəyinə çevriliblər. İnformasiya daşıyıcısı olmaqla yanaşı, həm də yeni problemlərin yaranmasına səbəb olublar. Müəyyən dairələr tərəfindən ölkələrə təsir etmək və ictimai rəyi dəyişmək üçün sosial şəbəkələrdən istifadə olunur. Bu mənada, Azərbaycan da istisna deyil. Sosial şəbəkədəki müəyyən səhifələr gizli profillər vasitəsi ilə Azərbaycanda da təxribat xarakterli işlərin görüldüyünü, həqiqətə əsaslanmayan yalan üzərində qurulan təbliğatın aparıldığının şahidi oluruq. Bu situasiya yeni deyil. Bir müddətdir biz bunu yaşamaqdayıq. Bu, qlobal bir problemdir. Bunun həlli ilə bağlı hüquqi müstəvidə insanların şərəf və ləyaqətinin alçaldılması ilə bağlı əməlləri törədildikdə, bunun məsuliyyət yaradılması ilə bağlı qanunvericiliyə müəyyən dəyişikliklər olunub. Amma bu, müəyyən gizli səyifələrin və gizli profillərin məqsədyönlü şəkildə həyata keçirdiyi təxribatın qarşısını ala bilmir. Bununla bağlı indiki halda, ilk növbədə, maarifləndirmə işinin aparılmasına ehtiyac var. İnsanlar maarifləndirilməlidir, məlumatlandırılmalıdır ki, bu işi aparanların məqsədi nədir. Bunların fəaliyyət istiqamətinin son nöqtəsi nəyə hesablanıb. Yəni insanlar tora düşməməlidir. Bir sözlə, sosial şəbəkələrdəki bu cür məqsədyönlü fəaliyyətin mənfi nəticələrinin aradan qaldırılması üçün bizim güvənəcəyimiz silah maarifləndirmə olmalıdır. Burada da medianın üzərinə böyük yük düşür. İnsanların məlumatlandırılması işini media və media rəhbərləri həyata keçirməlidir. Biz son vaxtlar bununla bağlı geniş spektrli fəaliyyətin şahidi olmaqdayıq. Ölkənin işıqlı insanları, ziyalıları, media təmsilçiləri, baş redaktorları cəmiyyəti və insanları məlumatlandırmağa çalışırlar. Çıxışlarında təxribat xarakterli halların qarşısını almağa çalışırlar. Yəni indiki halda başqa bir metod yoxdur. İnsanların məlumatlandırılması xətti ilə pozuculuğa xidmət edən planların qarşısını ala bilərik.

"Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas: **"Dezinformasiya materialının yayıldığı sosial şəbəkədə inandırıcı faktlarla cavab zərbəsi vurulmalıdır"**



- Sosial şəbəkələrdə xaricdən idarə olunan və Azərbaycana qarşı yönələn informasiya terroruna qarşı Azərbaycan mətbuatı operativ, sistemli və ardıcıl iş təşkil etməlidir. Bu məqsədlə peşəkar əməkdaşlardan ibarət xüsusi media qrupu yaradılmalı və həmin qrupa lazım olan bütün texniki imkanlar verilməlidir. Sosial şəbəkələrdə ölkəmizin əleyhinə istifadə olunan informasiyalar həmin media qrupu tərəfindən çevik və sürətlə təhlil olunmalı, informasiyanın zərərsizləşdirilməsi üçün ciddi və real əks-arqumentlər müəyyən edilməli, yayımlanmış həmin dezinformasiya materialının yayıldığı sosial şəbəkədə inandırıcı faktlarla cavab zərbəsi vurulmalı və təsir gücündən məhrum olunmalıdır. Təəssüflə qeyd edim ki, mətbu orqanlarımız və internet mediamız Azərbaycan əleyhinə xaricdən aparılan əks-təbliğat kampaniyasına tutarlı və ardıcıl cavab verməyə köklənməyib. Düşünürəm ki, biz bu sahədə mövcud olan nöqsanlarımızı aradan qaldırmaq üçün əməkdaşlarımızı sosial şəbəkələrlə işləməyə hazırlamalıyıq. Əgər sosial şəbəkələrlə işləmək təcrübəsini gündəlik fəaliyyətimizin əsas hissəsi kimi nəzarətdə saxlamasaq, həmin sahə boş qalacaq və o boşluğu ölkəmizin düşmənləri zəbt edib, ölkəmizə qarşı çirkin niyyətlərini həyata keçirməkdə davam edəcəklər. Yəni biz işimizin bir hissəsini sosial şəbəkələrə köçürməliyik.

**GÜLYANƏ AĞAKƏRİMOVA**

# Xəzər Konvensiyası erməni iqtisadçısının gözü ilə

*Vaqe Davtyan: "Mən iki əsas təhlükəni göstərə bilərəm: hərbi-siyasi və iqtisadi"*



**Ermənistanın energetika üzrə eksperti Vaqe Davtyan hesab edir ki, Xəzər Konvensiyası Ermənistanın regiondakı hərbi-siyasi, eləcə də, iqtisadi əhəmiyyətini itirir. Ölkəsinin Birinci Kanal portalına müsahibə verən V.Davtyana görə, Xəzər Konvensiyası Ermənistanın maraqlarına birbaşa təsir göstərməsə də, dolayı yollarla bir sıra risklər mövcuddur: "Mən iki əsas təhlükəni göstərə bilərəm: hərbi-siyasi və iqtisadi. Çox yəqin ki, Konvensiya Ermənistanın, əsas olaraq, hərbi-siyasi əhəmiyyətini itirir, birinci növbədə Rusiya üçün".**

İqtisadi risklərə gəlincə, erməni ekspertinə görə, Xəzər Konvensiyası tənzimləyici mexanizmlər sistemidir ki, burada Azərbaycan-İran və Azərbaycan-İran-Rusiya iqtisadi əməkdaşlığı nəzərdə tutulur: "Biz, burada beynəlxalq nəqliyyat dəhlizi kimi "Şimal-Cənub" faktorundan danışa bilərik ki, Qəzvin-Rəşt-Astara olmaqla, İran-Azərbaycan dəmir yolunu keçəcək və Ermənistanı kənarda qoyacaq". V.Davtyan daha bir nüansa toxunaraq bildirib ki, digər məsələ də Ermənistanı ciddi təhlükə altında qoyur. Erməni ekspert İran-Ermənistan-Gürcüstan-Rusiya elektrik enerjisi dəhlizinin böyük sual altında qaldığını bildirib: "Belə ki, 2018-ci ilin yanvarından başlayaraq, Bakı, Tehran və Rusiya Azərbaycanın üzərindən keçməklə, məhz bu logistik marşrut üzrə rəsmi fikir mübadilələri təşkil edirlər".

Erməni iqtisadçı bu fonda Azərbaycan-İran arasında enerji sektorundakı əməkdaşlığın da kifayət qədər diqqət çəkdiyini deyib. Davtyanın sözlərinə görə, bu yaxınlarda İran Azərbaycandan elektrik enerjisi almağa başlayıb, bununla yanaşı, bəyan edilib ki, artıq bu istiqamətdə Ermənistanla İran arasındakı barter müqaviləsinə də ehtiyac qalmır və elektrik enerjisi Gürcüstana ixrac ediləcək.

"Biz, faktiki olaraq, çox əhəmiyyətli bazarı itirmiş oluruq" deyə bildirən V.Davtyan, hətta Konvensiya qəbul edilməsəydi belə, bütün bunların baş verməli olduğunu etiraf edib. O, hesab edir ki, mövcud Konvensiya bu tendensiyanın daha da güclənməsinə şərait yaradır. "Bütövlükdə, Konvensiya bir sıra siyasi məsələlərlə yanaşı, Xəzər regionundakı anti-erməni lobbisinə güclü təkan verəcək" deyə erməni iqtisadçı eksperti bildirib.

**R.NURƏDDİNOĞLU**

## Dövlət Komitəsində məcburi köçkünlərlə növbəti görüş olub

Avqustun 21-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində məcburi köçkünlərlə növbəti görüş keçirilib. Komitədən AZƏRTAC-a bildiriblər ki, Dövlət Komitəsinin sədri Rövşən Rzayev, sədr müavinləri, şöbə və departament müdirləri görüşdə iştirak ediblər. Görüşdə məcburi köçkünlərin mənzil-məişət, kommunal, status, işəgötürmə ilə bağlı müraciətləri ayrı-ayrılıqda dinlənilib, onlara geniş izahat verilib.

Qeyd olunub ki, qəzalı binalarda yaşayan məcburi köçkünlərin problemlərinin həlli, o cümlədən mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində işlər mərhələli şəkildə həyata keçirilir. Bu günə qədər onlar üçün 98 qəsəbə salınıb. Prezident İlham Əliyev hər zaman bu kateqoriyadan olan vətəndaşlarımızın problemlərinə xüsusi diqqət və qayğı göstərir. Birinci vitse-prezident Mehriban Əliyeva ən qəzalı və ən ağır şəraitdə yaşayan məcburi köçkünlərlə əlaqədar aparılan işin sürətləndirilməsi üçün tapşırıqlar verib. Görülən bütün işlər məcburi köçkünlərin problemlərinin daim diqqət mərkəzində olduğunu və prioritet təşkil etdiyini göstərir. Görüşdə iştirak edən məcburi köçkünlərin ərizələri aidiyyəti şöbələrin nümayəndələri tərəfindən qeydə alınıb. Dövlət Komitəsinin sədri müraciətlərin araşdırılması və qanuna uyğun tədbirlər görülməsi üçün göstəriş verib.

## Yeddi ayda ölkədə bir sıra mühüm obyektlər istifadəyə verilib

Bu ilin yanvar-iyul aylarında Naxçıvan Muxtar Respublikasında Təmizləyici Qurğular Kompleksi, Naxçıvan Müəllimlər İnstitutunun yeni binası, Bakı şəhərində Yüksəkgərginlikli avadanlıqlar zavodu, 110/35/10 kilovoltluq "Yasamal-1" və "Qobu", 35/10-6 kilovoltluq 120 saylı elektrik yarımstansiyaları istifadəyə verilib.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, hesabat dövrü ərzində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi, Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin yeni binası, Bakı Şəhər Statistika İdarəsinin inzibati binası, Bona Dea Beynəlxalq Hospitalı, "Dinamo" oteli, Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağı, Sumqayıt şəhərində Sumqayıt Kimya Sənaye Parkında polipropilen zavodu istifadəyə verilib. Həmçinin Mingəçevir şəhərində Mingəçevir Sənaye Parkında "Mingəçevir Tekstil" MMC-nin iplik istehsalı üzrə iki müəssisəsi, Naftalan şəhərində Naftalan Şəhər Mərkəzi Xəstəxanası, Goranboy rayonunda "Region Aqropark", Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsi, 110/35/10 kilovoltluq "Dəlimməmmədli" elektrik yarımstansiyası, Dəlimməmmədli-Quşçular-Fəxrəli-Qurbanzadə-Alpout avtomobil yolu, Xaçmaz rayonunda "Azərxalça" ASC-nin Xaçmaz filialı, Neftçala rayonunda Neftçala Sənaye Məhəlləsində "Xəzər" avtomobil zavodu, Naxçıvan Muxtar Respublikasında bir növbədə gəlişlərin sayı 15 nəfər olan ambulatoriya-poliklinika müəssisəsi, 922 şagird yerlik 3, Bakı və Şəki şəhərlərində, Abşeron, Balakən və Şamaxı rayonlarında ümumilikdə 5 min 816 şagird yerlik 5 ümumtəhsil məktəb binası və digər obyektlər təhvil verilib.

## Nar Qurban bayramı münasibətilə pulsuz dəqiqələr hədiyyə edir




***Milli dəyərlərə xüsusi diqqətilə seçilən mobil operator "Nar" Qurban bayramı münasibətilə abunəçilərinə 100 dəqiqə hədiyyə edir. Bonus dəqiqələri əldə etmək üçün Nar abunəçiləri *777#2223# şifrəsini yığmalıdır. Təqdim olunan bonuslar 22 avqust tarixində aktivləşəcək və şəbəkədaxili zənglər üçün sərf olunacaq. Bonus dəqiqələr bayram günlərinin sonuna qədər aktivdir. Bu kampaniya bütün fərdi Nar nömrələrinə aiddir və kampaniyaya qoşulmaq tamamilə ödənişsizdir. "Qurban bayramı" və digər kampaniyalar haqqında ətraflı məlumatı nar.az saytında əldə edə bilərsiniz.***

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayıb. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə vermişdir. Hazırda "Nar" şəbəkəsi ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. "P3 Communications" tərəfindən 2017-ci ildə keçirilmiş şəbəkə sınaqları nəticəsində Nar şəbəkəsi "ən yaxşı mobil zəng xidməti" göstərən şəbəkə olaraq tanınmışdır.

# Füzuli və Cəbrayılın işğalından 25 il keçdi

***1993-cü il avqustun 23-də Füzulinin 51 kəndi və rayon mərkəzi ermənilər tərəfindən işğal olunub, 55 min nəfərə yaxın sakin doğma torpaqlarını tərk edib. Füzuli rayonu Qarabağ dağ silsiləsinin cənub-şərq ətəklərindən Araz çayınadək sahəni əhatə edir, Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca İranla həmsərhəddir.***



Rayonun ərazisi 1386 kv.km, əhalisi təxminən 105 min nəfərdir. Rayonun işğaldan azad olunmuş ərazisində 13 qəsəbə və 20 kənd var. Qəsəbələrdən 12-si işğaldan azad olunmuş ərazidə yeni salınıb və məcburi köçkün ailələri, müvəqqəti olaraq. burada yerləşdirilib. Hazırda ərazidə 51 min nəfər məcburi köçkün məskunlaşıb. Füzuli rayonu 1988-ci ildən başlayaraq, mütəmadi olaraq, ermənilərin hücumuna məruz qalıb. İşğal nəticəsində 1100-dən çox füzulili şəhid olub, 113 nəfər girov götürülüb, 1450 nəfər müxtəlif dərəcəli əlil olub. Geniş meşə massivləri ilə örtülü olan Dövlətyarlı kəndində ağaclar, bütünlüklə qırılıb, Qoçəhmədli kənd yolu boyunca ağaclar kütləvi surətdə məhv edilib, Yağlıvənd kəndində kəndarası yolun sağ və sol tərəfindəki böyük yaşıllıqlar tamamilə qırılıb, 2006-2009-cu illər ərzində rayonun 35 000 hektardan artıq ərazisi ermənilər tərəfindən yandırılıb.

Eyni zamanda, avqustun 23-də ərazisi 1050 kv.km olan Cəbrayıl rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən tutulması ilə 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 5 məscid, 2 muzey, 129 tarixi abidə, 149 mədəniyyət ocağı işğal altında qalıb.

Cəbrayıldan olan 61 100 nəfər məcburi köçkün ölkənin 58 rayonunun 2000-dən artıq yaşayış məntəqəsində məskunlaşıb. Bütün bunlara baxmayaraq, ən sevindirici məqam odur ki, Azərbaycan ordusunun 2016-cı ilin aprel döyüşlərində erməni təxribatına layiqli cavab verərək, Füzuli rayonunda geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli Lələ Təpə yüksəkliyi Azərbaycan qüvvələrinin nəzarətinə keçdi. Bu gün Lələ Təpənin ələ keçirilməsi ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində tam təhlükəsiz həyat şəraiti təmin edilib. Cocuq Mərcanlıda geniş tikinti-quruculuq işləri davam edir. Birinci mərhələdə yaşayış məntəqəsində 50 fərdi ev, məktəb binası və müvafiq infrastrukturun tikintisindən sonra ikinci mərhələdə 100 fərdi yaşayış evinin, 50 yerlik uşaq bağçasının, tibb məntəqəsi və klub-icma mərkəzi üçün binaların, poçt binasının və digər zəruri infrastruktur obyektlərinin inşası aparılır. Qeyd edək ki, bu gün də bu işlər davam etdirilməkdədir. Bu gün bütün ölkə ictimaiyyəti, qaçqın və məcburi köçkünlər hesab edirlər ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən atılan bu qətiyyətli addımlar növbəti uğurlarımızın, doğma ellərə "Böyük qayıdış"ın başlanğıcıdır.

Xalqımız Cocuq Mərcanlıya qaydışı ümid verən hadisə kimi qiymətləndirir və bu "Böyük qayıdış"ın gec-tez işğal olunmuş digər rayonlarımızda da reallaşacağına inanır.

***Rəfiqə KAMALQIZI***

TƏRS BAXIŞ

# İqbal Ağazadə siyasəti tərk edir

## *Yaxud "Ümid" sədri siyasi uğursuzluqları ilə barışmaq niyyətindədir*

***Uzun müddətdir ki, müxalifət kuluarlarında görünməyən "Ümid" partiyasının sədri İqbal Ağazadənin siyasəti tərk edəcəyi ilə bağlı məlumatlar səslənməkdədir. Müxalifətçi partiya sədrinin siyasətdə uğur əldə edə bilməməsi onun hələ 2015-ci ildə parlamentə keçirilən seçkilərdə uduzması anından başlayıb. Məhz həmin dövrlərdən etibarən, ara-sıra mediada görünən İ.Ağazadə sonradan, ümumiyyətlə, bir kənara çəkilərək, heç bir siyasi proseslərə qoşulmur.***



Bu arada, onu da xatırlatmaq yerinə düşərdi ki, məhz seçkiləri uduzandan sonra onun qarşısına müəyyən problemlər çıxmağa başladı. Misal üçün, hələ seçkilərdən öncə, ADP ilə birgə təmsil olunduğu "Qarabağ" siyasi blokundan imtina etdikdən sonra "125"-lər adlı yeni blok yaradan İ.Ağazadə orada da ciddi uğursuzluqdan yaxa qurtara bilmədi. Halbuki o, "Qarabağ" blokunda olarkən, müəyyən siyasi maraqlarını təmin etməyə çalışmışdı, hətta millət vəkili statusunu da əldə etmişdi. Ancaq sonradan onun Sərdar Cəlaloğluya verdiyi vədi tutmaması vəziyyətin kökündən dəyişməsi ilə nəticələndi. Bununla da, adı çəkilən siyasi blok iflasa uğradı. Hətta "Ümid" sədrinin sonradan yenidən bu bloku bərpa etmək istəyi və Ağazadənin Cəlaloğluna etdiyi təklif rədd edildi. Belə ki, yenidən ADP ilə birgə fəaliyyət göstərmək arzusunu gizlətməyən "Ümid" sədri ADP-nin etirazı ilə qarşılaşdı. Daha dəqiq desək, S.Cəlaloğlu İ.Ağazadənin ona etdiyi xəyanəti bağışlamaq fikrində olmadığını açıq-aşkar bəyan etdi. Çünki ADP-də hesab edirdilər ki, "Ümid" partiyası "Qarabağ" blokunu "125"-lər siyasi klubuna dəyişməklə çox böyük səhvə yol verib. Nəticədə, İ.Ağazadə artıq deputat olmadığını yaxşı bilir və müxalifət düşərgəsində olan-qalan etibarını da itirmək üzrədir. Çünki onun xəyanətə alışmış olduğunu bilən digər müxalif siyasi təşkilatlar da "Ümid"lə əməkdaşlıqdan qəti şəkildə imtina etməkdədirlər.

### İstefa verənlərin əksər çoxluğunun ittihamları bənzərdir

Baş verənlərin ardınca, "Ümid" partiyasının daxilində də sədrə etimadsızlıq baş qaldırdı və bununla da istefalar başlanıldı. Bu gün də istefalar davam etməkdədir. Maraqlı məqamlardan biri də budur ki, istefaya gedənlərin əksər çoxluğu eyni motivdən çıxış edərək, İ.Ağazadəni avtoritarçılıqda, rejimçilikdə günahlandırır, ümumiyyətlə, siyasi təşkilat daxilində demokratik mühitin aradan çıxarıldığını bildirirlər. Elə də uzağa getməyərək, bir neçə il öncə, partiyadan istefa vermiş sədr müavini Həcər Abbaslının sosial şəbəkə üzərindən yazdığı statusunu xatırlaya bilərik. SİTAT: "İstefamı partiyadaxili qərarların demokratik yolla qəbul edilməməsi, partiyadaxili idarəçiliyinin üzvlərin ictimai-siyasi təcrübəsi, fərdi potensialı, perspektivi və ümumkomanda maraqlarının əsasında deyil, sədrin şəxsi münasibətləri zəminində aparılması bu qərarı verməyimə səbəb oldu..."

Daha öncələr istefa vermiş partiya üzvləri Aynur İmranova, partiyanın gənclər təşkilatının sədri Elvin Camalov, Ruslan İzzətli və digərləri də öz istefalarını bənzər ittihamlarla ələqələndiriblər. Ümumiyyətlə, bütün bunlardan sonra İ.Ağazadə, demək olar ki, sədri olduğu partiyasında etibar edə biləcəyi adam belə tapa bilmir. Bu amil də, belə nəticəyə gəlməyə zəmin yaradır ki, artıq onun, bütövlükdə, siyasətdən getmək qərarı barədə yayılan məlumatlar həqiqəti əks etdirə bilər.

***Rövşən RƏSULOV***



Dağıdıcı müxalifətin xəyanət strategiyası

RƏFİQƏ

***Bu, danılmaz faktdır ki, dağıdıcı müxalifətin, nəinki bugünkü, ümumiyyətlə, atdığı bütün addımlar xaricdəki erməni lobbi təşkilatlarının və xaricdəki anti-Azərbaycan qüvvələrin fəaliyyəti ilə paralellik təşkil edir. Bu bədbəxt ünsürlər gecə-gündüz Azərbaycan dövlətinə və millətinə qarşı anti-təbliğat kampaniyası aparan erməni lobbisinin vasitəsinə çevrilməklə məhz onların planı əsasında fəaliyyət göstəriblər.***

Artıq hər kəs bilir ki, dağıdıcı müxalifətin "mübarizə strategiyası" təkcə hakimiyyətə qarşı deyil, eyni zamanda, dövlətə, dövlətçiliyə, xalqa, bütövlükdə, Azərbaycanın müstəqilliyinə, varlığına və haqlı mücadiləsinə qarşı yönəlib. Əbəs yerə deyil ki, düşərgə "liderləri" zaman-zaman ermənilərə "qardaş" deyənləri daim müdafiə ediblər. Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli, Leyla Yunus, Xədicə İsmayıl, Rüstəm İbrahimbəyov, Əkrəm Əylisli kimi bədnam ünsürlər azərbaycanlıları təhqir edən ermənipərəst təbliğatı aparmaqdan belə usanmayıblar. Çünki beləlerinin damarlarında illərlə xəyanət qanı axıb. Lənət olsun bu xəyanətkarlara!

Bu ünsürlər xəyanətkar olmaqla yanaşı, həyasızcasına ölkədə uğurlara kölgə salmaq üçün, hətta söz azadlığı arqumentinə əsaslanmağa çalışaraq, məsələni siyasiləşdirir və məntiqsiz iddialar irəli sürürlər. Ermənilər kimi hiyləgərliyə əl atır, qəzet, sayt səhifələrində kosmopolit və antimilli təfəkkürlü ünsürlərə geniş yer verərək, məhz onların dili ilə öz fikirlərini cəmiyyətə sırımağa çalışırlar. Görünən odur ki, bu məsələdə də erməni lobbisi-dağıdıcı müxalifət işbirliyini "uğurla" davam etdirməklə, xəyanətkar əməllərini bir daha sübut edir.

Azərbaycan cəmiyyəti, artıq dağıdıcı düşərgənin xaricdəki erməni lobbisi tərəfindən maliyyələşdirildiyini və bu düşərgə üçün milli maraq anlayışının ən son planda olduğunu çox yaxşı bilir. Ona görə də, dağıdıcı ünsürlərin ümummilli maraqlar haqqında qeyri-səmimi iddialar cəmiyyətdə ironiya ilə qarşılanır.

Birmənalı şəkildə deyə bilərik ki, nankorlar və xəyanətkarlar toplumu dəyişilməz olaraq qalmaqdadır. Çünki xəmirləri belə yoğrulub və hər an dövlətin maraqlarına qarşı çıxış etmək üçün erməni lobbisindən, xaricdəki ermənipərəst qüvvələrdən əmr gözləmələri də təəccüblü deyil. Uzağa getməyərək, "Sülh və Demokratiya İnstitutu"nun rəhbəri Leyla Yunusun bu gün Avropada sığınacaq alaraq, Azərbaycan əleyhinə işlər apardığı deyilənlərin məntiqi sübutudur. Onun Ermənistanın "Region" Araşdırmalar Mərkəzi ilə birlikdə təsis etdiyi "publicdialogues.info" saytı da, məhz Azərbaycanda ictimai rəyi çaşdırmaq, Dağlıq Qarabağ probleminin kökü və erməni millətçilərinin torpaqlarımıza və mədəniyyətimizə iddiasını cəmiyyətin yaddaşından silmək üçün yaradılsa da, artıq xalqımız bu satıb-satılan xəyanətkarların kimliyini bilir.

Yəqin ki, oxucularımız üçün də maraqlıdır ki, erməni lobbisinin və onun "sadiq tərəfdaşı" olan dağıdıcı düşərgənin bu qədər cənfəşanlıq etməsinin səbəbi nədir? Heç şübhəsiz, dağıdıcı müxalifət üçün ilk öncə, maddi maraqlar ön plandadır. Yuxarıda qeyd etdiyimiz kimi, artıq hər kəs dağıdıcı düşərgənin erməni lobbisi tərəfindən maliyyələşdirildiyini bilir. Digər tərəfdən, ölkəmizin əldə etdiyi nailiyyətlər dostlarımızı sevindirdiyi kimi, düşmənlərimizi də kədərlə boğur, onlarda kəskin qısqanclıq hissləri yaradır. Demokratik inkişaf yolu seçmiş Azərbaycanın bütün sahələrdə və əldə etdiyi nailiyyətlər bu gün dünya birliyi tərəfindən alqışlanır. Yerləşdiyi regionun lider dövlətinə çevrilən, hətta qlobal maliyyə böhranı dövründə belə iqtisadiyyatını sürətlə inkişaf etdirən Azərbaycan Respublikası, artıq beynəlxalq aləm tərəfindən mühüm tərəfdaş kimi qəbul olunur.

Bu gün dağıdıcı müxalifət başbilənlərin anti-Azərbaycan dairələrlə baş-başa verərək, eyni addımlar atması Azərbaycan xalqının kəskin etirazına səbəb olur. Dağıdıcı düşərgə, artıq illərdir ki, ölkəmizin milli maraqlarına zərbə vurmaqla məşğuldur. Bu düşərgədə toplaşanlar isə, bu və ya digər səbəbdən incik düşmüş, öz biznes və karyera maraqlarını təmin edə bilməmiş ünsürlərdir. Onları cəmiyyət, dövlət, milli mənafelər, demokratiya, insan hüquqları və s. maraqlandırmır. Hay-küy salmaları onlar üçün əsl simalarını gizlətmək və insanları çaşdırmaq üçün vasitədir. Ancaq nə etsələr də, cidanı çuvalda gizlətmək olmaz.

Ermənistanda fəaliyyət göstərən bir sıra siyasi dairələr Nikol Paşinyan hakimiyyətinə qarşı əks-inqilabın baş verəcəyi ehtimallarını mümkün sayırlar. Belə ki, "məxməri inqilab"ın əks-inqilabla əvəzlənməsində köhnə siyasi sistemin, xüsusilə, Robert Koçaryanın rol alacağı da istisna edilmir.

# Ermənistanda əks-inqilab təhlükəsi

## Robert Koçaryanın və köhnə sistemin planları nədən ibarət ola bilər?













### Politoloq Stepan Qriqoryan: "Koçaryanın ən yaxşı müdafiə vasitəsi siyasətə geri dönərək, "məni təqib edirlər" bəyanatını verməkdir"

"Ermənistanın ikinci prezidenti Robert Koçaryan 1 mart 2008-ci ildə nümayişçilərin dağıdılması ittihamına baxmayaraq, siyasətə dönüşü baş tutdu". Bu barədə "aysor.am"-a açıqlamasında politoloq Stepan Qriqoryan deyib. Onun sözlərinə görə, Koçaryan siyasətə heç də öz istəyi, öz iradəsi ilə geri qayıtmayıb: "Bu, onun üçün, sadəcə, müdafiə olunmaq variantıdır. Nəzər alsaq ki, o, 1 mart hadisələrinə görə ittiham olunur, bu zaman onun ən yaxşı müdafiə vasitəsi siyasətə geri dönərək, "məni təqib edirlər" bəyanatını verməkdir".

### "Təsəvvürümə gətirə bilmirəm ki, o özünə qarşı neqativ köklənmiş vətəndaşlarla necə görüşəcək"

"Robert Koçaryan çox yaxşı təsəvvür edir ki, ictimaiyyətdə ona qarşı olan münasibət necədir" deyə qeyd edən erməni politoloqu hesab edir ki, onda müəyyən resurslar var: "Lakin mən onun siyasətə uğurlu qayıdışında şansları görmürəm. Belə ki, siyasətə qayıdış özündə bir sıra mühüm komponentləri birləşdirir - vətəndaşlarla görüşmək və söhbət etmək. Məhz bu yerdə mən təsəvvürümə gətirə bilmirəm, o özünə qarşı neqativ tərzdə köklənmiş vətəndaşlarla necə görüşəcək".

Bu baxımdan, S.Qriqoryan R.Koçaryanın siyasətə dönüşünün uğurlu nəticə verə biləcəyinə inanmadığını deyərək, xalqın ona olan etimadının olmadığını iddia edib.

Lakin erməni ictimai rəyində hər kəs eyni fikirləri bölüşmür. Misal üçün, Ermənistanın tanınmış vəkili və hüquq müdafiəçisi Norayr Norikyan əks-fikirdən çıxış edərək, "1in.am" saytına müsahibəsində bildirib ki, N.Paşinyanın növbədənkənar parlament seçkilərini keçirmək qərarı gecikdikcə, ölkədə əks-inqilab reallığı artmağa başlayır. Erməni hüquq müdafiəçisi konstitusiya problemlərinə də toxunaraq bildirib: "N.Paşinyanın bu ilin iyununda təsdiq edilmiş hökumət proqramında dəqiq şəkildə vurğulanıb - bir il müddətində növbədənkənar parlament seçkilərini keçirmək".

### Hüquq müdafiəçisi Norayr Norikyan: "Əks-inqilab növbəti siyasi böhrana və kataklizmlərə gətirib-çıxara bilər"

Vəkilə görə, təhlükə ondadır ki, N.Paşinyan baş nazir vəzifəsindən istefa verərkən, parlamentdə fəaliyyət göstərən fraksiyalar öz aralarında danışıqlara gedərək, başqa namizədin baş nazir seçilməsini təşkil edə bilərlər. "Bu isə Ermənistanda acı nəticələrə hesablana biləcək növbəti siyasi böhrana və kataklizmlərə gətirib-çıxara bilər" N.Norikyan bildirib.

"Bu cür ssenarinin baş verməyəcəyini istisna edə bilmərəm, belə ki, Ermənistanın keçmiş hakimiyyət gücləri revanş əldə etməyə çalışmaqla, itirilmişləri geri qaytarmağa, mövcud hakimiyyəti isə ləğv etməyə cəhd göstərəcəklər" deyən erməni hüquq müdafiəçisi, həmçinin, bildirib ki, bu cür vəziyyətdə ölkənin yeni rəhbərliyi növbədənkənar seçkilərin keçirilməsi üçün, yaxud buna start vermək üçün, eyni zamanda, təhlükənin aradan qaldırılması üçün əllərində olan bütün resurslardan istifadə etməlidirlər. Norikyan köhnə hakimiyyət sistemində cinayət törətmiş bütün şəxslərin zamanında istintaqa cəlb edilməsinin vacibliyi barədə də danışıb.

### "İnanmıram ki, köhnə siyasi sistem təmsilçiləri sakit oturub, yeni hakimiyyətin onları həbsxanalara göndərməsini gözləyəcəklər"

Jurnalistin köhnə siyasi sistem təmsilçilərinin, hətta xalqın müqavimətinə baxmayaraq, bənzər addımlara, yeni əks-inqilaba getmələri ehtimalının nə dərəcədə yüksək olması sualını da cavablandıran erməni hüquq müdafiəçisi bildirib: "Onların buna cəhd etmələri üçün öz hesablamaları olacaq. İnanmıram ki, köhnə siyasi sistem təmsilçiləri sakit oturub, yeni hakimiyyətin onları həbsxanalara göndərməsini gözləyəcəklər. Təbii ki, onlar bu situasiyada özlərini müdafiə etməyə cəhdlər göstərəcəklər və bu istiqamətdə istədikləri nəticəni qazanmaları üçün öz qeyri-leqal resurslarını istifadə edəcəklər".

Görünən isə budur ki, devrilmiş Serj Sarkisyan hakimiyyəti və onun ətrafı heç də boş dayanmayıb və bu gün R.Koçaryanın fəallaşması da, belə deməyə əsas verir ki, Ermənistanda əks-inqilab vəziyyəti tam yetişib.

**Rövşən NURƏDDİNOĞLU**

TƏRS BAXIŞ

# Cəbhəçilərlə müsavatçıları suçlayanlar bir araya gəlsələr

## *Yaxud düşərgəni xilas etmək istəyənlər nə etməlidirlər?*

***Ənənəvi müxalifət düşərgəsinin zaman-zaman birlik və s. bənzər qurumlarda bir araya gəlmələrinə rəğmən, bu qurumların ömürləri çox qısa olub. Lakin daha bir məqam ondan ibarətdir ki, həmin birliklərin dağılmasında əsas olaraq, AXCP və Müsavat partiyaları göstərilir. Deməli olar ki, bütün parlament və prezident seçkiləri ərəfəsində adıçəkilən partiyalar bir-birlərinə qarşı olan antipatiya hisslərindən dolayı, bütövlükdə, müxalifətin birliyinə köklü zərbələr vurublar. Söz yox ki, siyasətlə maraqlanan ictimai kəsim bugünkü "Milli Şura"nın da aqibətini "İctimai Palata" və ondan öncəki birliklərin iflası kontekstində görməkdədir.***

VHP sədri Sabir Rüstəmxanlı:

### "Ümummüxalifət hərəkatı bizim arzumuz olsa da, bunun da yaranması real görünmür"

Bu arada, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rütəmxanlının hələ bir neçə il öncə dediyi fikirlərini xatırlamaq olar. Məsələn, Rüstəmxanlı "Milli Şura" yaradılmamışdan öncə siyasi düşərgədə qısa müddətli fəaliyyət göstərmiş və şəxsi mənafe, eləcə də, ambisiyalar nəticəsində dağılmış "İctimai Palata"nın məhvini cəbhəçilərlə müsavatçılarda görüb. "Ümummüxalifət hərəkatı bizim arzumuz olsa da, bunun da yaranması real görünmür", deyən VHP sədrinə görə, bütün bunların baiskarı AXCP-Müsavat düşmənçiliyidir: "Açığını deyim ki, bu hərəkatın yaranmasına mane olan həmişə AXCP və Müsavat partiyası olub. Yəni bu partiyaların ikisinin bir araya gələ bilməməsi həmişə birlik istəklərini reallaşdırmağa imkan verməyib".

### "AXCP ilə Müsavatın qarşılıqlı ittihamları və bir-birini qəbul etməməsi həmişə müxalifət düşərgəsində ciddi parçalayıcı amil olub"

S.Rüstəmxanlı tarixə qısa ekskurs edərək, bəzi misalları da gətirib və baş verən hər bir qarşıdurmanın parçalayıcı faktor olduğunu deyib: "Vaxtilə "Demkonqres"in, "SİDSUH"-un və digər qurumların dağılmasında da onlar rol oynayıb. AXCP ilə Müsavatın qarşılıqlı ittihamları və bir-birini qəbul etməməsi həmişə müxalifət düşərgəsində ciddi parçalayıcı amil olub. Etiraf etməliyik ki, seçkidə müxalifət düşərgəsinin bir yerdə olması həlledicidir. Amma bununla yanaşı, seçkini təqdim olunan namizədin xalq arasındakı nüfuzu da udur. Bu mənada, hansısa partiyadan daha çox namizədin kimliyi də vacibdir. Təəssüf ki, indiyə qədər müxalifət daxilində aparılan mübarizələr, bu düşərgədə üzdə olan adamlarımız əsassız yazılarla və ittihamlarla çirkləndirilib".

### AXCP və Müsavatı siyasi arenadan çıxdaş da edə bilərlər

Göründüyü kimi, müxalifətin siyasi məhvə doğru sürüklənməsinin günahkarları hər dəfə AXCP və Müsavat partiyaları və bu siyasi təşkilatların liderləri göstərilir. Nəinki VHP sədri S.Rüstəmxanlı, eləcə də, ona qədər bir çox müxalifət partiyalarının sədrləri və aparıcı funksionerləri bu mövzuda çıxış ediblər. Lakin bundan nəticə çıxarmayan radikal və ambisioz cəbhəçilərlə müsavatçılar, əksinə, daha da aqressivləşir, onları müxalifəti parçalamaqda və bir araya gələ bilməməkdə suçlayanları az qala "vətən xaini" hesab edirlər. Halbuki dövlətin siyasi və s. maraqlarını da satan, məhz bu partiyaların "liderləri" olublar.

Bu arada, onu da qeyd etmək olar ki, düşərgənin siyasi uğur əldə edə bilməməsini iddia edən bir sıra müxalifət partiyaları, əslində, bir araya gələrək, onlara zərbə vuran, siyasi manevələr yaradan AXCP və Müsavatı siyasi arenadan çıxdaş da edə bilərlər. Lakin görünür, hələ ki, buna getməyə tələsmirlər və əgər tələsmirlərsə, deməli, bir sıra günahları özlərində axtarmalıdırlar.

***Rövşən RƏSULOV***

# Suyu bulandırma cəhdlərinin perspektivi yoxdur

***Azərbaycanın müstəqil daxili və xarici siyasəti, yüksək beynəlxalq imici, dünyada baş verən hadisələr və gedən proseslərə öz münasibəti, müxtəlif qüvvələrin təsir imkanlarına qarşı güclü immuniteti, milli və dövlətçilik maraqlarını hər şeydən üstün tutması bəzi xarici dairələri və bunu istəməyən qüvvələri həmişə ciddi narahat edib.***



Zaman-zaman Azərbaycana qarşı güclənən və səngiyən çirkin qarayaxma kampaniyasının, eləcə də, sabitliyin pozulmasına edilən davamlı cəhdlərin arxasında da dövlətimizin heç bir qüvvənin qarşısında əyilməməsi, öz mövqeyini qətiyyətlə müdafiə etməsi, ardıcıl və prinsipial siyasətidir. Odur ki, sifarişlə çalışan dağıdıcı qüvvələr nə əvvəllər öz qərəzli planlarını reallaşdıra biliblər, nə də bundan sonra çirkin niyyətlərinə nail ola biləcəklər. Çünki Azərbaycanda güclü xalq-iqtidar birliyi var və dəfələrlə bu birlik fors-major hallarda özünü göstərərək, müxtəlif kritik durumların önlənməsində əsas rol oynayıb. Qonşu ölkələrdən fərqli olaraq, indiyə kimi Azərbaycan cəmiyyətinə heç bir xarici qüvvənin, kənar amilin nüfuz edə bilməməsi və çirkin niyyətlərinə çatmamasının əsas səbəblərindən biri də məhz budur. Onların qarşısına hər zaman yüksək intellektə, dövlətçilik ənənələrinə sadiq, yetkin siyasi mədəniyyətə malik Azərbaycan cəmiyyəti çıxaraq arzularını ürəklərində qoyublar, heç bir xarici, kənar qüvvəyə Azərbaycanda meydan verməyiblər.

Çünki bu, o dağıdıcı qüvvələrdir ki, adi kriminal hadisəni siyasi avantüraya çevirmək, miqyasını böyüdərək süni rezonans yaratmaq, bununla da, sabitliyi pozmaq və ən nəhayət, Azərbaycanda öz xain niyyətlərini həyata keçirməyə nail olmayıblar və bundan sonra da olmayacaqlar. Həmin qüvvələr bilsinlər ki, bütün bunlar əbəs cəhdlərdir, çünki Azərbaycan dövlətinin arxasında onun bütün siyasətini qeyd-şərtsiz dəstəkləyən xalq durur və Azərbaycanda suyu bulandırma cəhdlərinin perspektivi yoxdur. Çünki Azərbaycan özünü müdafiə etməyə qadir qüdrətli dövlət olmaqla yanaşı, onun vətəndaşı da yüksək siyasi mədəniyyətə malik olduğundan, heç zaman yad qüvvələrin yedəyində getməyib. Odur ki, bulanıq suda balıq tutmaq istəyənlər bilməlidirlər ki, Azərbaycan vətəndaşını öz xəbis niyyətinin icraçısına çevirə bilməyəcəklər. Əli Kərimli, Emin Milli, Leyla Yunus, Xədicə İsmayıl, Natiq Adilov və bu kimi satıb-satılan ünsürlər həmin xarici qüvvələr tərəfindən bir əlcək kimi istifadə olunub kənara atılır. Bu, həmin ünsürlərdir ki, bunu dərk edəndə, artıq bir-birilərini ittiham etməyə başlayırlar. Onda da başlayırlar ağalarına qarşı ittiham irəli sürməyə. Onlar siyasi dairələrin maliyyə dəstəyi ilə Azərbaycana qarşı qarayaxma kampaniyası apardılar, lakin gördülər ki, bunun heç bir nəticəsi yoxdur və özlərinin hansı səviyyədə olduqlarını və necə alətə çevrildiklərini başa düşürlər. Bundan sonra da başlayırlar öz aralarında bir-birinin paxırını açmağa. Bu, belə də olub və olmaqdadır. Çünki onların əsl mahiyyəti alət olmaqdır.

***R.HÜSEYNOVA***

# "Bakcell"dən sərfəli 4G təklifləri

## *Şirkətin təqdim etdiyi bütün internet paketləri 4G şəbəkəsində istifadə oluna bilər*

***Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti öz abunəçilərini ən yüksək keyfiyyətli mobil rabitə xidmətləri və ən üstün rəqəmsal müştəri təcrübəsi ilə təmin etmək məqsədilə sərfəli təkliflər hazırlayır və ultra-sürətli 4G/LTE şəbəkəsinin əhatə dairəsini genişləndirir.***




Müştərilərinə bütün Bakı və Abşeron ərazisi və ölkənin 30-dan çox rayon və şəhər mərkəzində mövcud olan 4G xidmətlərin üstünlüklərindən istifadə imkanı yaratmaq üçün Bakcell sərfəli İnternet paketləri təklif edir. Bu təkliflər bütün müştəri seqmentlərinin tələb və ehtiyacını qarşılamaq üçün nəzərdə tutulub.

Məsələn, İnternetdən tez-tez istifadə edən abunəçilər xüsusi Data SİM kartlarını əldə edib 10 Gb, 30 Gb, 50 Gb həcmində və hətta limitsiz "data" Sür@ paketlərindən yararlana bilər. Müvafiq olaraq 12, 20, 30 və 50 manata təklif olunan "yalnız internet" paketləri sayəsində abunəçilər sürəti saniyədə 225 meqabitə çatan ultra-sürətli 4G xidmətindən istifadə edərək mobil cihazlarda və "Smart" televizorlarda yüksək həllolma əmsalı ilə 4K kontentini izləmək və yükləmək, əyləncə proqramlarına ani giriş əldə etmək, HD keyfiyyətində onlayn video izləmək, canlı konsert və idman proqramlarına baxmaq imkanına malikdirlər.

"Bakcell"in təklif etdiyi bütün internet paketlər 4G şəbəkəsində istifadə oluna bilər. Başqa sözlə, "Bakcell"in ən müasir LTE-A şəbəkəsindən yararlanan abunəçilər maksimum sürət və rahatlıqla yanaşı internet bağlantısının ən yüksək effektivliyini əldə edirlər. Bazarda ən innovativ mobil operator olan Bakcell bütün müştəri seqmentlərinin tələb və ehtiyaclarını öyrənmək üçün daim bazar araşdırmaları aparır və müasir smartfon istifadəçilərinin tələblərinə uyğun internet paketləri təqdim edir. Belə ki, 1,3,5, 10 və 20 Gb həcmində təqdim olunan paketlər abunəçilərə istifadə çevikliyi və rahatlığı ilə yanaşı çox sərfəli qiymətə böyük həcmdə internet trafiki verir ki, istifadəçilər "Bakcell"in ən üstün 4G şəbəkəsindən sözün əsl mənasında faydalanmaq imkanına malik olurlar.

"Bakcell"in smartfonlar üçün nəzərdə tutulmuş internet təklifləri barədə ətraflı məlumat https://www.bakcell.com/az/internet-for-smartphones səhifəsində təqdim edilir. Data SİM kartları üçün nəzərdə tutulmuş "yalnız internet" təklifləri barədə daha ətraflı məlumat isə https://www.bakcell.com/az/internet-for-other-devices səhifəsindən əldə oluna bilər.

Bakcell özünün yüksək keyfiyyətli 4G/LTE xidmətlərini daha çox müştəri üçün əlçatan etmək məqsədilə 4G şəbəkəsinin əhatə dairəsinin daha da genişləndirilməsinə yönəlmiş işləri davam etdirir. Şirkət bundan sonra da müasir mobil rabitə istifadəçilərini yenilənmiş, rahat və olduqca sərfəli tarif, məhsul və xidmətlərlə təmin edəcək.

7000-dən artıq baza stansiyası vasitəsilə Bakcell şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən Bakcell şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb ("Best in Test").

# İslam evlənmək hüququ haqqında

***İslam insanlara, müsəlmanlara xoşbəxt ailə həyatı və evlənmək hüququ verir. Müqəddəs Qurani-Kərimin “Nəhl” surəsinin 72-ci ayəsində göstərilir:***

“Allah sizin üçün özünüzdən (yəni öz cinsinizdən) zövcələr yaratdı. Zövcələrinizdən də sizin üçün oğullar və nəvələr əmələ gətirdi, pak nemətlərdən sizə ruzi verdi”.



İlahiyyatçı Seyyid Müstəba Musavilari yazır: “İslam cavanların cinsi qüvvələrinin öz təbii yolundan çıxmasının qarşısını almaq üçün və onlara bu ehtirasların təzyiqindən nicat verməkdən ötrü ailə başçılarına həddi-buluğa çatan vaxt cavanların evlənməsi üçün lazım olan vəsaitin hazır edilməsini tövsiyə edir. Çünki özləri üçün ailə qurmaq imkanına malik olmayan cavanlar cinsi ehtirasların təsiri altında fəsad və müxtəlif təhriklərlə üzbəüz qalırlar. Ona görə də, islam dini ata-anaları öz övladlarını evləndirmək işində məsul hesab edir. Bununla valideynlər övladlarının imanının və əxlaqının qorunmasına böyük yardım göstərmiş olurlar. İslam ailə ocağının təşkilini müxtəlif fəsad və pozğunluqların qarşısını almaq üçün yeganə yol sayır. Həqiqətən, sağlam ailə həyatı insan cəmiyyətinin xoşbəxt yaşayışını təmin edən mühüm amilərdəndir’’.

Bir gün Peyğəmbər (s.ə.v.v) minbərdən xalqa belə buyurdu: “Ey müsəlman milləti, sizin qızlarınız ağacdakı yetişmiş meyvələr kimidirlər. Əgər vaxtı çatdıqda meyvə dərilməsə, günəş işığı və başqa amillər onu korlayar. Qızlarınızı da vaxtında ərə verməsəniz, fəsadlar yarana bilər. Çünki onlar da bəşərdirlər və onların da insani ehtiyaclarına cavab verilməlidir”.

İmam Baqir (ə)-ın yaxın adamlarından biri olan Əli ibni Əsbat, o Həzrətə yazdığı məktubda belə deyirdi: “Qızlarıma layiq və münasib həyat yoldaşı tapa bilmirəm. Vəzifəm nədir?” Həzrət cavabında belə yazmışdı:

“Ürəyin istədiyi cavanların tapılmasını gözləmə. Çünki Peyğəmbər (s.s.v.v) buyurub: “Əgər qızlarınıza evlənmək üçün cavanlar elçilik etsələr və onların dini və əxlaqi cəhətdən eyibləri olmasa, qızlarınızı belələrinə ərə verin. Bundan qeyri-surətdə oğlan və qızlarımızın fəsada düşməklərindən ehtiyat edin”.

İslam evlənmək məsələsində heç bir maneə yaratmır. Əksinə, bunu ictimai mənafeyə xidmət kimi qiymətləndirir və bu yolda var gücü ilə çalışır. Evlənmək insanın cismini və ruhunu sakitləşdirməklə yanaşı, bəşər səadətinin təməlini də qoyur, cəmiyyətdə əxlaqi və cinsi stabillik yaradır. Çünki ruhunda təşviş və nigaranlıq olan şəxslər həqiqi səadətə çata bilmirlər.

İslam nöqteyi-nəzərindən insani bağlılıq ürəklərin müqəddəs bağlılığı və rahatlıq amilidir. Nikah ona görədir ki, bunun sayəsində hər iki tərəf sağlam və rahat yaşamaq imkanı əldə edir. Bu da ona paklıq və təmizlik bəxş edir. “Rum” surəsində deyilir: “Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda dostluq, sevgi və mərhəmət yaranması da, Onun qüdrət nişanələrindəndir”.

İslam dini ailə üzvləri arasında əlaqələri möhkəmlətmək məqsədilə, buna aid olan bütün qayda-qanunları göstərir və onları çox dəqiqliklə tanıtdırır. Qurani-Kərim evlənməni “möhkəm peyman” adlandırır və ondan məqsədin maddi hədəflər olmadığını göstərir. Ailə üzvləri arasında mənəvi vəhdətin yaranması üçün, islam onların bütün vəzifələrini kamil surətdə müəyyən etmişdir.

“Nisa” surəsində deyilir: “Ər və arvadın bir-birlərinin boynunda qarşılıqlı haqları vardır”.

Ər iqtisadi məsələlərə və ailənin maddi cəhətdən təmin edilməsinə cavabdehdir. Qadın isə övladın qayğısına qalmaq, onların tərbiyəsi ilə məşğul olmaq və ailə işlərinin tənzim edilməsi vəzifəsini öhdəsinə alır.

İslam dini qadının öz fitri vəzifələrini yerinə yetirməyi tövsiyə edir və onun hüquqlarının tapdalanmasına icazə vermir. Dinimiz qadının həm evdə, həm də ondan xaricdə ağır işlərlə həddən artıq məşğul olmasını qəbul etmir.

Əlbəttə, evdən xaricdə qadının işləməsinə zəruri hallarda icazə verilir. Amma həm fərdi, həm də ictimai işlərdə qadının yad kişilərlə birgə fəaliyyəti mümkün qədər məhdud olmalıdır.

S.M.Musavilarinin fikrincə, hər təşkilat və qurumun müəyyən bir başçıya ehtiyacı var. Ailə də özü-özlüyündə təşkilatdır və onun da məsuliyyətini öhdəsinə alan bir rəhbər olmalıdır. Başçısız qurum isə hərc-mərcliyə düçar olur və nəticədə məhv olub aradan gedir. Buna görə də, ailənin başçılığını kişiyə və ya qadına tapşırmaq lazımdır. İndi, görəsən, onlardan hansı biri bu vəzifəyə daha layiqdir? Əlbəttə, bu təşkilatın məsuliyyətini qəbul etməyə, övladların qəyyumluğunu öhdəsinə almağa, başçılıq vəzifələrini yerinə yetirməyə və ailənin idarə olunmasının ağır yükünə dözməyə kişi qadından daha layiqlidir. Kişi ailədə hərc-mərcliyin qarşısını almağı qadından daha yaxşı bacarar. Qadının fitrətində mehribanlıq və məhəbbət daha dərin kökə malikdir. Ancaq kişi təbiət etibarilə hiss və atifədən daha çox əqlə tabe olur. Ona görə də, “fikir” məsuliyyət qəbul etməkdə “mehribanlıqdan” daha münasibdir. İslam ailəyə başçılıq üçün kişini seçmişdir. Bu isə ailədə qadınla məsləhətləşmək, həmkarlıq və qarşılıqlı anlaşma ilə ziddiyyət təşkil etmir. Kişi ailəni ürəyi istədiyi kimi idarə etməməlidir. İslam kişini ailə başçısı təyin etsə də, qadına qarşı zor işlətməyi bəyənilməz bir iş sayır. “Nisa” surəsində buyrulur: “Qadınlar açıq-aşkar pis bir iş görməyincə, özlərinə verdiyiniz şeylərin (mehriyyənin) bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl rəftar edin”.

Kişi ailənin məsulu və keşikçisidir. Qadın da evin, ərinin və övladlarının məsuliyyətini öz öhdəsinə almalıdır. Bizim əsrdə ər-arvad münasibətlərinin və ailə tellərinin bu qədər zəifləməsi, habelə, boşanmaların sayının artması, ən əhəmiyyətsiz və kiçik hadisələr üzündən ailələrin dağılması, nikahın məsuliyyətinə və həyati məsələlərə diqqətsizlik ucbatından olur.

S.V.Musavilari qeyd edir ki, bir çox şəxslər evlənmə məsələlərində səmimiyyət və həmkarlıq, qadınla kişinin xüsusiyyətlərinin uyğun gəlib-gəlməməsinə diqqət yetirmir, ailə qurarkən ən çox sərvət, şəhvət və zahiri gözəlliklərə fikir verirlər. Mənəvi və ruhi məsələlərə əhəmiyyət verilmədiyi üçün yenicə qurulmuş ailə həyatı tez bir zamanda sarsılır, müxtəlif xüsusiyyətli ər-arvad arasındakı ziddiyyətlər günbəgün artır və dərinləşir. Ailədə hərc-mərclik, nizamsızlıq hökm sürdükdə isə, o, tez bir zamanda dağılır. İslam ailədə belə münasibətləri qəti şəkildə rədd edir. Ailənin təşkili sərvət, şəhvət və zahiri gözəlliklərə görə olmamalıdır. Nikah iman, iffət və əxlaqi fəzilətlərə əsasən bağlandıqda və ailə islami qaydalar əsasında idarə olunduqda, yuxarıda göstərilən arzuolunmaz hallar heç vaxt meydana çıxmır.

İslam Peyğəmbəri (s.ə.v.v) belə buyurur: “Qadınla yalnız onun gözəlliyinə görə evlənən şəxslər, bu izdivacda xoşuna gələn və axtardığı şeyləri tapa bilməyəcək. Təkcə sərvətə görə evlənənləri isə, Allah-Taala özbaşına buraxar. Ona görə də, sizə imanlı və iffətli zövcələr seçmək lazımdır”.

İslami hədislərdə insanlar evlənməyə və ailə qurmağa təşviq edilirlər. Səhv və ağılsız bəhanələrlə ailə qurmayan şəxslər kəskin şəkildə tənqid olunurlar.

Rəsuli-Əkrəm (s.ə.v.v) buyurur: “Evlənmək və nikah mənim ayinlərimdəndir. Bu ayinə əməl etməyənlər məndən deyildirlər”.

İslam nöqteyi-nəzərindən alçaq, əxlaqsız və şəriətə riayət etməyən adamlarla evlənmək - islam dini hər bir şəxsə evlənməzdən qabaq öz gələcək həyat yoldaşının zahiri qiyafəsini görməyə icazə verir və onun ruhi və əxlaqi xüsusiyyətləri haqda ətraflı məlumat əldə etməyi tövsiyə edir.

Ailənin səadəti, ilk növbədə, qadınla kişi arasındakı rabitənin və onların birgə yaşayışının necəliyindən asılıdır. Onların rabitələri nə qədər möhkəm olsa, o qədər də ailə xoşbəxtliyi artıq olacaq. Ruhi bağlılıq və çətinliklər qarşısında fədakarlıq həqiqi ailə səadətinin bərqərar olması üçün əsas şərtlərdəndir.

İslam dinində ailə mühitində yaşayan kişi və qadınlar üçün hüquqlar müəyyən edilmiş və onların hər birinin vəzifələrini dəqiq göstərən qayda-qanunlar təyin olunmuşdur. Bundan əlavə, əxlaqi cəhətdən də ailənin səadətini təmin edən göstəriş və tövsiyələr nəzərdə tutulmuşdur. İslam Peyğəmbəri (s.ə.v.v) belə buyurur:

“Ümmətimin ən yaxşı kişiləri öz ailəsi ilə xoşrəftar edənlərdir”. “Sizlərdən ən yaxşınız öz ailəsi ilə daha yaxşı rəftar edən kəslərdir və mən sizin hamınızdan çox öz ailəmlə xoş rəftar edirəm”.

Peyğəmbər (s.ə.v.v) ətrafındakı cavanlara üz tutub buyurdu: “Kim bu qadınla evlənmək istəyir?” Bir nəfər buna razı olduğunu dedi. Həzrət (s.ə.v.v) ondan soruşdu: “Onun mehriyyəsini nə ilə ödəyəcəksən?” Həmin adam heç nəyə malik olmadığını bildirdi. Həzrət (s.ə.v.v) ondan soruşdu: “Quran oxumağı bacarırsanmı?”

Cavan müsbət cavab verdikdə, Həzrət (s.ə.v.v) belə buyurdu: “Bu qadına Quran oxumağı öyrətsən, səni onunla evləndirərəm”.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 22 avqust


## Karbohidratlar insan ömrünü uzadır



Amerikalı alimlər insan ömrünün uzun olması üçün onun qida rasionunda zəruri karbohidratların miqdarını hesablayıblar. RİA Novosti agentliyi bildirir ki, bu araşdırmanın icraçıları səkkiz tədqiqatın gedişində Avropa, Şimali Amerika və Asiyanın 20 ölkəsindən 432.179 insan barədə məlumatları araşdırıblar.

AZƏRTAC Rusiya KİV-lərinə istinadla xəbər verir ki, bu tədqiqatlarda insanın cinsi, yaşı, zərərli vərdişləri, tutulduğu xəstəliklər və qida rasionunda məhsulların nisbi payları nəzərə alınıb. Təhlil nəticəsində məlum olub ki, qidasının orta hesabla 50 faizi karbohidratlardan olan insanlar daha uzunömürlü olur. Qida rasionunda karbohidratların nisbi payı 70 faizdən çox və ya 40 faizdən az olan insanların isə dünyasını tez dəyişməsi ehtimalı daha böyükdür.

Məsələn, 50 yaşa çatmış insanların qida rasionunda karbohidratların nisbi payı 50 faiz olduqda onların orta hesabla daha 33,1 il yaşamaq şansı var. Qida rasionunda karbohidratların nisbi payı 30 faizdən az olduqda isə həmin rəqəm 29,1 ilə bərabərdir. Ümumiyyətlə karbohidratlardan istifadə etməyən və onları heyvan mənşəli piylər və zülallarla (mal əti, donuz əti, toyuq, pendir) əvəz edənlər ömürlərini qısaltmağa risk edirlər.

## Britaniyalı alimlər: "Qız uşaqları daha çətin tərbiyə olunur"



Britaniyalı alimlərin apardıqları araşdırmalara görə, qızlar yetkinlik yaşlarına çatan müddətdə onları idarə etmək oğlanlarla müqayisədə daha çətindir. Sorğuda 12 - 16 yaşlarında uşaqları olan 3 mindən çox valideyn iştirak edib. Sorğunun nəticələrinə görə, bu yaşda olan oğlanların 75 faizi günahlarını etiraf edərək valideynləri ilə güzəştə getməyi bacarırlar. Qızlara gəldikdə isə ata-anaların əksəriyyəti öz qız övladlarını kəskin tənqid ediblər. 27 faiz qızlarını kobud, 12 faiz isə hətta aqressiv adlandırıb. Valideynlər yetkinlik yaşında olan xanımları idarə etməyin digər bir çətinliyi kimi qızların həmin vaxtlarda özlərinin xarici görünüşlərinə həddən çox diqqət yetirməsini göstəriblər.

## Nasist kollaborasionist Almaniyaya deportasiya edilib



ABŞ hökuməti Ukrayna mənşəli Yakov Palini Almaniyaya deportasiya edib. Pali ABŞ-da yaşayan sonuncu nasist kollaborasionist (İkinci Dünya müharibəsi zamanı öz vətənini işğal etmiş faşist işğalçıları ilə əməkdaşlıq edən vətən xaini) idi. FAZ qəzetinin bugünkü nömrəsində AFR XİN başçısı Hayko Masın bu sözləri sitat gətirilir: "Almaniya nasistlər tərəfindən törədilmiş cinayətlərə görə mənəvi məsuliyyəti öz üzərinə götürüb". Alman KİV-lərində verilən məlumata görə, 95 yaşlı Pali avqustun 21-də səhər təyyarə ilə Düsseldorfa gəlib. Oradan onu Münster yaxınlığında yerləşən qocalar evinə aparıblar. AZƏRTAC xəbər verir ki, İkinci Dünya müharibəsi dövründə SS Partiyasının üzvü olmuş Pali Polşa ərazisində yerləşən Travniki cəza düşərgəsində gizli polis agenti olub. "Bild" qəzeti bildirir ki, 2015-ci ildə Vürsburq prokurorluğu Pali barəsində təhqiqata başlayıb, lakin onun təqsirini sübut edən dəlillər az olduğu üçün bu işi bağlayıb. FAZ qəzeti hesab edir ki, Palinin ahıl yaşda olması nəzərə alınsa, onun məhkəmə məsuliyyətinə cəlb edilməsi ehtimalı azdır. Yakov Pali hələ 15 il bundan əvvəl Amerika vətəndaşlığından məhrum edilib, lakin bütün bu müddət ərzində ABŞ onu deportasiya edə bilmirdi, çünki heç bir ölkə onu qəbul etməyə razılaşmırdı.

## Azərbaycan iki Avropa çempionatına ev sahibliyi edəcək



Azərbaycan 2019-cu ildə aerobika və bədii gimnastika üzrə Avropa çempionatlarına ev sahibliyi edəcək. Azərbaycan Gimnastika Federasiyasının saytında yer alan xəbərə görə, bu barədə qərar Avropa Gimnastika İttifaqının İcraiyyə Komitəsinin iclasında qəbul olunub.

Milli Gimnastika Arenası ilk dəfə olaraq, 23-25 mayda qitənin ən güclü aerobika gimnastlarını qəbul edəcək. Azərbaycanda son 5 ildir inkişaf etdirilən bu idman növü üzrə çempionatın məhz Bakıda təşkili yerli gimnastların inkişafına da müsbət təkan verəcək.

31 may-2 iyunda isə bədii gimnastika üzrə Avropa çempionatı təşkil olunacaq. Bununla da Bakı artıq 4-cü dəfə bu idman növü üzrə qitə birinciliyinə ev sahibliyi edəcək. Qeyd edək ki, Azərbaycan Gimnastika Federasiyası 2019-cu ildə idman gimnastikası, batut gimnastikası və tamblinq üzrə Dünya Kuboku mərhələləri, həmçinin bədii gimnastika üzrə həm Dünya Kuboku, həm də dünya çempionatını da təşkil edəcək.

## Azərbaycan-Kosovo oyununun biletləri satışa çıxarılıb

UEFA NATIONS LEAGUE

Futbol üzrə Azərbaycan millisinin UEFA Millətlər Liqasındakı ilk oyununun biletləri satışa çıxarılıb. AFFA-nın rəsmi saytında yer alan məlumata görə, azarkeşlər sentyabrın 7-də Bakı Olimpiya Stadionunda Kosovo yığmasına qarşı keçiriləcək matçın biletlərini bu gündən etibarən əldə edə bilərlər. Üç kateqoriya üzrə təklif olunan biletlərin qiyməti 2-5 manat, VIP yerlər üçün isə 10 manatdır. Bu oyuna bilet alan hər bir azarkeş Azərbaycan - Malta (14 oktyabr) və Azərbaycan - Farer adaları (17 noyabr) oyunlarının biletinə 50 faiz endirim əldə edə bilər. Endirim yalnız eyni dəyərli biletə ilk biletin alışı vaxtı tətbiq edilir (endirimlər "Sky Box" biletlərinə şamil olunmur). Azərbaycan - Kosovo oyunu Bakı vaxtı ilə saat 20:00-da başlayacaq.

## Azərbaycan batutçuları beynəlxalq turnirdə üç medal qazanıblar



Batutçularımız Batumidə keçirilən "Ajara Cup" beynəlxalq turnirində uğurla çıxış ediblər. Azərbaycan Gimnastika Federasiyasından AZƏRTAC-a bildiriblər ki, 15-16 yaşlı gimnastların yarışında Selcan Maqsudova 85,100 xalla gümüş medalın sahibi olub. Həmçinin 11-12 yaşlı oğlanların yarışında isə Hüseyn Abbasov qızıl (89,675 xal), Maqsud Maqsudov bürünc (82,965 xal) medallara layiq görülüblər.

## "Barselona" Rakitiçə 125 milyon avro qiymət qoydu



"Barselona" futbolçusu İvan Rakitiçin təzminat qiyməti müəyyənləşib. Qol.az-ın İspaniya mətbuatına istinadən yaydığı xəbərə görə, Kataloniya klubu 30 yaşlı yarımmüdafiəçini 125 milyon avroya satmağa hazırdır. "Barsa"nın PSJ-nin maraqlandığı xorvat yarımmüdafiəçini bu qiymətdən aşağı satmağı düşünmədiyi bildirilib. Qeyd edək ki, Rakitiç 2014-cü ildən "Barselona"da oynayır.

## "Liverpul" səfərdə qalib gəlib



Avqustun 20-də İngiltərə Premyer Liqasının ikinci turuna "Kristal Palas"-"Liverpul" oyunu ilə yekun vurulub. AZƏRTAC xəbər verir ki, turun son oyununda Məhəmməd Salahın komandası "Kristal Palas"ın qonağı olub. Oyun "mersesayd"lıların qələbəsi ilə yekunlaşıb (0:2).

Matçda hesab birinci hissənin son dəqiqəsində açılıb. Hakimin təyin etdiyi 11 metrlik cərimə zərbəsindən sonra Ceyms Milner şansını əldən verməyib. Qarşılaşmanın 75-ci dəqiqəsində hakim "Kristal Palas" klubunun müdafiəçisi Van Bisakaya qırmızı kart göstərərək meydandan kənarlaşdırıb. Oyunda son nöqtəni "Liverpul" klubunun seneqallı oyunçusu Sadio Mane qoyub. Qapıçı ilə təkbətək qalan hücumçu adını tabloya yazdırıb - 0:2. Beləliklə, "Liverpul" klubu Premyer Liqada ardıcıl ikinci dəfə qələbə qazanıb.

Xatırladaq ki, İngiltərə Premyer Liqasının açılış turunda Yurgen Klopun yetirmələri "Vest Hem" klubunu (4:0), "Kristal Palas" isə səfərdə "Fulhem" (0:2) komandasını məğlub edib. Növbəti turda "Liverpul" "Brayton"la, "Kristal Palas" isə "Votford" klubu ilə qarşılaşacaq.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500